# 26 fevral Xocalı soyqırımının anım günüdür


AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 10 (1410), 26 fevral - 4 mart 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*




## Azərbaycan cüdoçusu “Böyük dəbilqə” turnirinin qalibidir

Cüdoçularımız “Böyük dəbilqə” turnirində dörd medal qazanıblar.

Almaniyanın Düsseldorf şəhərində keçirilən yarışın son günü yığma komandamız üçün uğurlu olub. Bütün döyüşləri qələbə ilə başa vuran Məmmədəli Mehdiyev (90 kq) fəxri kürsünün ilk pilləsinə çıxıb. İki bürünc medalı isə komandamızın aktivinə 100 kiloqram çəki dərəcəsində Zelim Kotsoyev və qadınlar arasında 78 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan İrina Kindzerska yazdırıb.

Bu yarışda Rüstəm Orucov (73 kq) da bürünc medal qazanıb.

Qeyd edək ki, bu nüfuzlu turnirdə 93 ölkədən 600-dən çox idmançı qüvvəsini sınayıb.

## 14 ildən sonra Bakı yenidən dünya çempionatına ev sahibliyi edəcək

Azərbaycan Gimnastika Federasiyası ilin ən mötəbər idman yarışlarından birinə hazırlaşır. Bakı 14 ildən sonra - sentyabrın 16-22-də bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək.

Zərif gimnastlar Milli Gimnastika Arenasında 1 həftə boyunca öz güclərini sınayacaqlar. Həm fərdi gimnastlar, həm qrup hərəkətləri komandaları ayrı-ayrı alətlər və çoxnövçülük üzrə mübarizə aparacaq, həmçinin komanda hesabında da ən yaxşıların adları açıqlanacaq.

Qeyd edək ki, 37-ci dünya çempionatı Tokio 2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyacaq. Çempionat yalnız medalçıları deyil, həm də Olimpiadaya namizədlərin adlarını da müəyyənləşdirəcək. Belə ki, fərdi proqramda çoxnövçülük üzrə ilk 16 yerdə qərarlaşan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) lisenziya əldə etmiş olacaq. Qrup hərəkətləri komandalarına gəldikdə isə, ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Bu ilin çempionatında isə çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda Tokioya vəsiqə qazanacaq.




Paytaxt Bakı may ayında bədii gimnastika üzrə 35-ci, aerobika üzrə isə 11-ci Avropa çempionatına ev sahibliyi edəcək.

## “Rəqəmsal media və Kommunikasiya” mövzusunda seminara yekun vurulub

Səh. 2


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU


*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

## İdman zərif varlıq olan qadını daha da gözəlləşdirir

Səh. 5




## Olimpizm

### Olimpiadada yenilik

2024-cü il Paris Yay Olimpiya Oyunlarında ilk dəfə olaraq marafon yarışı açıq rejimdə keçiriləcək.



Yarışda həvəskarlar da iştirak edə biləcəklər.

Marafonda iştirak edəcək şəxslərin istək və imkanları daxilində müxtəlif məsafələr təklif olunacaq.

Paris-2024 Yay Olimpiya Oyunları 26 iyul - 11 avqustda keçiriləcək. Marafon yarışı 42 kilometr 195 metri əhatə edəcək.

### BOK Hindistanı uzaqlaşdırdı

Hindistanın Cammu və Kəşmir ştatında terror aktından sonra bu ölkənin 4 pakistanlı idmançıya viza verməkdən imtina etməsi Beynəlxalq Olimpiya Komitəsi (BOK) tərəfindən sərt sanksiya ilə qarşılanıb.

“ƏlCəzirə” telekanalının yaydığı məlumata görə, siyasəti idmana qarışdıran Hindistan Milli Olimpiya Komitəsinin gələcəkdə idman yarışlarının keçirilməsi üzrə müraciətlərinə rədd cavabı veriləcək. BOK digər milli olimpiya komitələrinə bu ölkədə keçirilən yarışlarda iştirakdan imtina etməyi tövsiyə edib.

BOK-un bəyanatında bildirilir ki, idmançılara viza verilməsindən imtina etmək Olimpiya hərəkatının prinsiplərinə ziddir və həmin ölkənin idmana siyasi müdaxiləsinin əlamətidir. “Bu xəbəri aldıqdan sonra Hindistan rəsmiləri ilə əlaqə yaratmağımıza baxmayaraq, pakistanlı idmançıların Dehlidə keçirilən yarışlarda iştirakına icazə verilməsinə nail ola bilmədik. Bunun nəticəsi olaraq, BOK-un İcraiyyə Komitəsi Hindistan MOK və hökuməti ilə Olimpiya yarışlarının və digər idman tədbirlərinin keçirilməsi barədə danışıqları dayandırmaq haqqında qərar qəbul edib”, -deyə bəyanatda qeyd olunur.



Beləliklə, BOK Hindistanın 2026-cı ildə gənclər arasında olimpiada, 2030-cu ildə Asiya Oyunları və Olimpiada-2032-yə ev sahibliyi ilə bağlı müraciətlərinə baxmaqdan imtina edib.


*Pouerliftinq üzrə Paralimpiya yığmamızın üzvləri ilə görüş keçirilib* Səh. 2

Vətənpərvər idmançımızla nazirlikdə görüş olub Səh. 2

Xocalı faciəsi - qan yaddaşımızdır Səh. 3

*“Ağ olimpiadanın hərarəti" sərt qışın soyuğuna qarşı* Səh. 6

Final üçün iki namizəd: Münhen, yoxsa Sankt-Peterburq? Səh. 7

*Anatoli Banişevskinin 73-cü ildönümü “Amasiya” idman klubunda təntənə ilə qeyd olundu* Səh. 7



# "Rəqəmsal media və Kommunikasiya" mövzusunda seminara yekun vurulub

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) təşəbbüsü, Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondunun dəstəyi ilə Bakıda "Rəqəmsal media və Kommunikasiya" mövzusunda seminara yekun vurulub. Seminarın son günündə Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə qonaqlarla görüşərək, onları təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb. MOK-un vitse-prezidenti bildirib ki, MOK-lar arasında əlaqələrin yaradılması və inkişafında belə seminarların rolu əvəzsizdir. Daha sonra Azərbaycan, Türkiyə, Rusiya, Albaniya, Moldova, Ukrayna, Gürcüstan, Qırğızıstan, Qazaxıstan, Serbiya və Belarus Milli Olimpiya Komitələrinin media və kommunikasiya mütəxəssisləri diplomalarla təltif edilib.

Seminarın məqsədi sosial media platformaları vasitəsilə Milli Olimpiya komitələrinin həyata keçirdiyi fəaliyyətləri və tədbirləri təbliğ etməyin yollarını öyrənmək, hazırkı trendlərin istifadəsi, hər bir platformaya uyğun strategiyanın hazırlanmasında innovativ üsulların tətbiq edilməsi idi.

Seminar çərçivəsində müxtəlif hadisələrə əsasən kommunikasiyanın aparılması metodları və böhran kommunikasiyasının idarə olunması metodları müzakirə olunub. İştirakçılar həmçinin interaktiv seminar ilə yanaşı Bakı Media Mərkəzində də olublar.

Qeyd edək ki, proqramın mühazirəçisi beynəlxalq media eksperti, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında yeni yaradılan regionun ilk "İdman jurnalistikası" magistr proqramının direktoru Den Meyson olub.



# Pouerliftinq üzrə Paralimpiya yığmamızın üzvləri ilə görüş keçirilib

Fevralın 22-də Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) baş katibinin müavini, Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev pouerliftinq üzrə Paralimpiya yığma komandamızın üzvləri ilə görüşüb.

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) ofisində təşkil olunan görüşdə komitənin prezidenti İlqar Rəhimov, birinci vitse-prezidentlər Natiq Qasımov, ikiqat Paralimpiya çempionu İlham Zəkiyev, Yaşar Hacıyev, baş katib Kamal Məmmədov, MOK-un şöbə müdiri Mehman Kərimov, o cümlədən komitənin əməkdaşları iştirak ediblər.

AMPK-nın prezidenti İlham Rəhimov qeyd edib ki, hazırda pauerliftinq yığma komandamız Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarına hazırlaşır. Komandamızın bu Oyunlara ən azı 4 lisenziya qazanacağı gözlənilir.

Daha sonra komitənin baş katibi K.Məmmədov çıxış edərək görülən işlər barədə məlumat verib. Onun sözlərinə görə, pauerliftinq komandamız həm Avropa, həm də dünya çempionatlarında medallar qazanıblar. Qarşıda duran hədəf növbəti Yay Paralimpiya Oyunlarında medal əldə etməkdir.

K.Məmmədov ölkəmizdə uşaq paralimpiya hərəkatından da söz açıb. Bildirib ki, Rəsul Zəkiyev uşaq paralimpiya hərəkatından yığmamıza qatılan idmançılardandır.

Pouerliftinq yığmamızın baş məşqçisi İlqar İbişov deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin paralimpiyaçılarımıza dəstək göstərməsi idmançılarımızı ruhlandırır. Komandamızın üzvləri ilə belə görüşlər, göstərilən diqqət idmançılarda ruh yüksəkliyi yaradır.

AMPK-nın vitse-prezidenti, ikiqat Paralimpiya çempionu İlham Zəkiyev də idmançılarımızda ruh yüksəkliyi yaradan bu görüşü yüksək qiymətləndirib.

Pouerliftinq idman növü üzrə paralimpiya milli komandasının kapitanı Elşən Hüseynov idmançılara göstərilən diqqətə görə minnətdarlığını bildirib. O, Tokio- 2020 Yay Paralimpiya Oyunlarında medal qazanmaq üçün əzmlə çalışdıqlarını deyib.

MOK-un baş katibinin müavini, Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev isə çıxışında pouerliftinqin ona yaxın sahə olduğunu deyib: "Mən özüm də keçmiş idmançı olaraq bilirəm ki, pouerliftinq necə çətin bir idman sahəsidir. Bu sahədə olan idmançılar fiziki və mənəvi çətinliklərlə üzləşirlər. Bu səbəbdən də pouerliftinqçilərdə ruh yüksəkliyi önəmlidir. İnanıram ki, idmançılarımız bütün çətinliklərin öhdəsindən uğurla gəlirlər. Mən də sizə lazımi dəstəyi göstərəcəyəm".

Azər Əliyev Tokio 2020 XVI Yay Paralimpiya Oyunlarında komandamızın medal qazanacağına ümid etdiyini bildirib və idmançılarımıza qarşıdakı yarışlarda uğurlar arzulayıb.

# Vətənpərvər idmançımızla nazirlikdə görüş olub

Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov Tehranda keçirilən karate üzrə beynəlxalq turnirin qalibi Zəhra Salmanlı ilə görüşüb.

Nazir müavini bütün rəqiblərinə qalib gələrək birinci yeri tutan idmançımızı təbrik edib və Azərbaycan bayrağının müdafiəsində göstərdiyi qəhrəmanlığa görə Zəhraya təşəkkürünü bildirib.

Görüşdən sonra gənc idmançıya mükafat və diplom təqdim olunub.

Qeyd edək ki, Tehranda turnirin keçirildiyi zalda Azərbaycan bayrağının erməni bayrağı altında asıldığını görən Zəhra buna etirazını bildirib və təşkilatçılara bayrağın yerinin dəyişdirilməyəcəyi təqdirdə yarışda iştirak etməyəcəyini söyləyib. İdmançımızın kəskin etirazından sonra Azərbaycan bayrağının yeri dəyişdirilib.

Daha sonra yarışa başlayan Zəhra rəqiblərini məğlub edib və 1-ci yerə çıxıb.



# *Bakıda cüdo üzrə beynəlxalq turnir təşkil edilib*



Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) və Azərbaycan Cüdo Federasiyasının birgə təşkilatçılığı ilə Bakı İdman Sarayında iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun xatirəsinə həsr olunmuş cüdo üzrə ənənəvi 39-cu beynəlxalq turniri keçirilib. Yarışdan əvvəl tədbir iştirakçıları Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Cəsur sərkərdə Həzi Aslanovun abidəsi önünə də tər çiçəklər düzülüb.

Əvvəlcə, general-mayor Həzi Aslanovun şərəfli ömür yolundan bəhs edən sənədli film göstərilib.

Sonra yarış iştirakçılarının və hakimlərin idman paradı olub.

Açılış mərasimində Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov, məşhur sərkərdənin nəvəsi, polis general-mayoru Həzi Aslanov, Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı iştirak ediblər.

Çıxış edənlər Azərbaycanda dövlət səviyyəsində idmana göstərilən diqqət və qayğını xüsusi vurğulayıblar. Natiqlər 39-cu dəfə Bakıda keçirilən beynəlxalq yarışda 7 ölkədən yeniyetmə cüdoçuların mübarizə apardığını söyləyiblər. Turnirin yüksək səviyyədə təşkilinə görə, Gənclər və İdman Nazirliyinə, Azərbaycan Cüdo Federasiyasına təşəkkür bildirilib. Beynəlxalq turnir açıq elan olunduqdan sonra dövlət himnimiz səsləndirilib.

Yarışda Azərbaycan idmançıları ilə yanaşı, Türkiyə, Gürcüstan, Ukrayna, Rusiya, Qazaxıstan və Özbəkistan cüdoçuları da mübarizə aparıblar.

Ümumi komanda hesabında Azərbaycan birinci, Özbəkistan ikinci, Ukrayna üçüncü yerləri tutub. Qaliblərə medal, diplom və xatirə hədiyyələri, həmçinin general-mayor Həzi Aslanovun xatirə medalı da təqdim olunub.

Fevralın 19-23-də "Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilən sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmə və gənclər arasında Azərbaycan çempionatına yekun vurulub.

Çempionatın ilk 3 günündə ən güclü yeniyetmə pəhləvanların adları aydınlıq gəlib.

# Güləş üzrə Azərbaycan çempionatı başa çatıb



Dördüncü yarış günündə gənc sərbəst güləşçilər xalça üzərinə çıxıblar. 57, 61, 65, 70, 74, 79, 86, 92, 97 və 125 kq çəki dərəcələrində ümumilikdə, 197 gənc pəhləvan mübarizə aparıb. Yarışın nəticələrinə əsasən, Azərbaycan çempionu adına ən güclülər layiq görülüblər. Sonuncu yarış günündə xalça üzərinə gənc yunan-Roma güləşçiləri çıxıblar. 55, 60, 63, 67, 72, 77, 82, 87, 97 və 130 kq-da ümumilikdə, 157 güləşçi mükafatalayiq yerlər uğrunda qüvvələrini sınayıb. Gərgin keçən mübarizə şəraitində qaliblər bəlli olub.



# Badmintonçumuz bürünc mükafatla kifayətlənib

Azərbaycan badmintonçusu Uqandanın paytaxtı Kampala şəhərində keçirilən beynəlxalq turnirdə bürünc medal qazanıb.

"Uganda İnternational 2019" turnirində ölkəmizi Ezmi Qovimuramadhoni təmsil edib. Mübarizəyə əsas mərhələdən start verən təmsilçimiz ilk görüşdə Uqanda badmintonçusu Fred Kirabo üzərində 2:0 (21:11, 21:13) hesablı qələbə qazanıb. O, səkkizdəbir finalda Misir təmsilçisi Adham Hatem Elcamalı da hər iki setdə məğlubiyyətə uğradıb - 21:19, 21:18. Badmintonçumuz dörddəbir finalda hindistanlı Siddhart ilə qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşma Ezmi Qovimuramadhoninin 2:1 (20:22, 21:17, 21:6) hesablı qələbəsi ilə başa çatıb. Yarımfinala yüksəlməklə turnirin ən azı bürünc medalını təmin edən idmançımız bu mərhələdə Hindistan badmintonçusu Rahul Bharadvaca 1:2 (21:17, 13:21,15:21) hesabı ilə uduzub.

# Anatoli Banişevskinin 73 yaşı oldu

"Neftçi"nin əfsanəvi futbolçusu Anatoli Banişevski yaşasaydı 73 yaşını qeyd edəcəkdi...

1946-cı ilin fevralın 23-də Bakıda anadan olan Banişevski "ağ-qaralar"ın heyətində (1964-1973, 1975-1978) SSRİ çempionatlarında 288 oyunda 121 qol, SSRİ kuboklarında isə 30 oyunda 15 qol vurub. 1966-cı ildə "Neftçi" ilə SSRİ çempionatının, SSRİ yığması ilə dünya çempionatının bürünc, 1972-ci ildə isə Avropa çempionatının gümüş medalını qazanıb. SSRİ yığmasında ən çox oyun keçirmiş (49 oyun) və fərqlənmiş (19 qol) "Neftçi"li "Marakana" stadionunda Braziliyanın qapısına qol vurmuş ilk sovet futbolçusudur.

SSRİ-nin əməkdar idman ustası və Qriqori Fedotov klubunun üzvü olan Banişevski daha sonra "Neftçi"də (1981-1982) məşqçi, Mingəçevirin "Avtomobilçi" klubunda (1984-1987), Burkina-Fasonun gənclər yığmasında (1987-1988) və "Kəpəz"də (1988) baş məşqçi kimi çalışıb. Afrika ölkəsində işlədiyi zaman ağır xəstəliyə tutulan Banişevski 1997-ci il dekabrın 9-da 51 yaşında vəfat edib. Banişevski ölümündən bir il əvvəl "Şöhrət ordeni" ilə təltif olunub.



"Neftçi"yə sədaqətini heç vaxt itirməyən "9 nömrə" azarkeşlərimizin yaddaşında əbədi olaraq qalacaq. Allah rəhmət eləsin!




# Xocalı faciəsi - qan yaddaşımızdır

***Xalqımız əsrlərdir zorla cəlb edildiyi bəladan qurtula bilmir. Bu xalq illərdir axşamlarının harda düşdüyünü, sabahlarının nə zaman açıldığını unudub. 1988-ci ildən bugünə qədər Ermənistan beynəlxalq qanunları və müharibə şərtlərini pozaraq işğal etdiyi ərazilərimizdə yerli əhaliyə amansız divan tutub, qətliam yaradıb. Azərbaycanın ən bərəkətli torpaqlarında, təbiəti göz oxşayan yurd yerlərində təəssüf ki, xain xislətli türk düşməni ermənilər məskunlaşıblar. Belə yurd yerlərindən biri də Qarabağdır. Azərbaycanın dilbər guşələrindən birində, Qarabağın Dağlıq hissəsində Xocalı adlı bir yaşayış məskəni vardır. Əsrlərin dərinliklərindən gəlirdi onun səsi. Neçə-neçə arxeoloji qazıntılar nəticəsində 6000 il bundan əvvələ aparıb çıxaran sübutlar, dəlillər aşkara çıxarılmışdır.***

Xocalı öz abidələrinin növləri, onların xarakterik xüsusiyyətləri və maddi-mədəniyyət qalıqlarının zənginliyi etibarilə hələ keçən əsrdən dünya alimlərinin diqqətini cəlb etmişdir. Bu abidələrlə alman arxeoloqu E.Resler, rus şərqşünası M.Xanıkov, ingilis F. Bayer, fransız A.Berje və başqaları tanış olmuş və oradan tapdıqları əşyaları öz ölkələrinə apararaq, ayrı-ayrı muzeyləri bəzəməyə çalışmışlar. Təəssüf hissi ilə deməliyik ki, 1992-ci ilin fevralında erməni və rus ordusunun birləşmiş qoşunları Xocalı əhalisini vəhşicəsinə qırarkən, hərbi texnika ilə genosidin ən iyrənc mərhələsi olan izi məhv etmək kimi mənfur bir əmələ əl atmış və bəşəriyyət üçün nadir abidələr toplusu olan Xocalı abidələrini dağıtmışlar.

Azərbaycan alimləri tərəfindən Xocalı abidərinin tədqiqinə 1920-ci illərdə başlanmışdır. Burada ilkin tədqiqat işləri aparmış Azərbaycanın görkəmli alimi Ə.Ələkbərov Xocalı abidələri kompleksini Azərbaycan abidələri haqqında təsəvvür əldə etmək üçün açar adlandırmışdır. Xocalı abidələri içərisində nadir yadigarlardan biri də kromlexlərdir. Kromlex dairəvi düzülmüş bir neçə dik və onların üzərinə qoyulmuş bir ədəd köndələn daşdan ibarətdir. Yenə də ibtidai dini əqidənin məhsulu olan bu abidə dindarlar arasında axirət evi adlanır.

Nəhayət göstərməliyik ki, Azərbaycanda ən qədim yazı da məhz Qarabağda aşkar edilmişdir. Xocalıda tədqiq olunan 11 saylı kurqandan üzərində mixi yazısı olan bir ədəd kiçik muncuq tapılmışdır. Akademik İ.İ.Meşşaninov müəyyən etmişdir ki, bu muncuğun üzərində eramızdan əvvəl VIII əsrdə yaşamış Assuriya çarının adı yazılmışdır. Bu yazı təkcə Qarabağın deyil, eləcə də bütün Azərbaycanın siyasi tarixinin öyrənilməsində böyük əhəmiyyətə malikdir.

1992-ci ilin fevralında gecə erməni və rus ordusunun birləşmiş qoşunları tarixi yaşadan, keşik çəkən Xocalı əhalisinə vəhşicəsinə divan tutublar. XX əsrdə Xocalı faciəsindən əvvəl iki yaşayış məntəqəsi eyni aqibətə uğramış, eyni metodla yer üzündən silinmiş, sakinləri məhv edilmişdi. Bunlardan birincisi Belarusun Xatın kəndidir. 1941-ci ildə nasistlər Xatın kəndini tamamilə yandırmış, dinc sakinləri soyuqqanlıqla məhv etmişlər. Buna bənzər ikinci hadisə Vyetnam müharibəsi zamanı baş verib. Yankilər Sonqmi kəndini və sakinlərini partizanlara dəstək vermək bəhanəsi ilə böyükdən-kiçiyə qədər bütünlüklə məhv etmişlər.

Bu iki hadisə müharibə tarixinə dinc əhalinin soyqırımı olaraq daxil olmuş və bütün dünyada geniş əks-səda doğurmuşdur. Lakin onlar Xocalı faciəsi ilə müqayisə oluna bilməzlər. Bu iki kənd olsa-olsa, Xocalıdan əvvəl viran edilən, sakinləri qətl edilən beş Azərbaycan kəndi - Bağanis-Ayrım, Kərkicahan, Meşəli, Cəmilli və Malıbəyli ilə müqayisə edilə bilər. Çünki dünya tarixində tayı-bərabəri olmayan Xocalı soyqırımı miqyasına və böyüklüyünə görə onların hamısından daha dəhşətli, daha müdhişdir.

1990-cı ilin qanlı Yanvar hadisələrindən sonra Azərbaycan xalqı 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə tarixə ən dəhşətli faciələrdən biri kimi daxil olmuş Xocalı soyqırımının şahidi oldu. Xocalıya qədər Kərkicahan dağıdıldı. Malıbəyli, Meşəli, Quşçular, Daşaltı viran qoyuldu. Ölənlərin, itənlərin sayı qat-qat çoxaldı, lakin o vaxt Azərbaycan dövlətinin başında duranların tükü belə tərpənmədi. Ataların bir misalı var: "Arxalı köpək qurd basar". Özlərinin Rusiya kimi arxası olduğunu görən ermənilər dünya tarixində misli olmayan növbəti cinayəti hazırladılar.

Fevralın 25-dən 26-na keçən gecə keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı alayın 10 tankı, 16 zirehli transportyoru, 9 piyadaların döyüş maşını və xeyli canlı qüvvəsi ilə Xocalını mühasirəyə aldı. Erməni faşistləri döyüş tanklarının və transportyorların köməyi ilə şəhərə soxularaq, onu tamamilə yandırdılar. Azğın düşmən bununla kifayətlənmədi. Yüzlərlə qocanın, qadının, uşağın meyiti yollarda qaldı. Bu faciə nəticəsində 613 nəfər şəhid oldu. - onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri qocadır. Bu faciədə 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi, 130 uşaq valideynlərindən birini itirdi. 487 nəfər yaralanmışdır ki, onlardan 76 nəfəri uşaq idi. 1275 nəfər əsir götürülüb, 203 nəfər itkin düşüb. İtkin düşənlərdən 22 nəfəri uşaq (8 nəfər qız), 42 nəfəri isə qocalar idi. Hadisələri ilk olaraq vidiolentə olan jurnalist Çingiz Mustafayev qeyd edirdi ki, "öldürülənlər içərisində 2 yaşından 15 yaşına qədər olan uşaqlar əksəriyyət təşkil edirdi".

Sağ qalan 6 minə yaxın Xocalı sakini respublikanın 50-yə yaxın şəhər və rayonlarında qaçqın statusu altında yaşamağa məcbur oldu, öz vətənlərində talelərinə məcburi köçkün həyatı yaşamaq yazıldı. Bundan başqa şəhərdə olan dövlət və şəxsi əmlak talan edilərək yandırıldı və dövlətə külli miqdarda ziyan vuruldu.

Erməni silahlı dəstələri və 366-cı motoatıcı alayın şəxsi heyəti Azərbaycanın yaşayış məntəqələrinin atəşə tutulmasında iştirak etmiş üzvləri Xocalı şəhərində törədilmiş vandalizmin əsas cinayətkarlarıdır. Məlumata görə, Xocalı ərazisində, daha dəqiq desək, Xanabadla Daşbulaq kəndləri arasında ilk səyyar "ölüm ocaqları" 1992-ci il fevralın 28-i saat 14.00-da salınıb. Birinci dəfə 46 meyit yandırılıb. Ertəsi gündə 28 uşaq və hamilə qadının meyitlərindən ocaq qalanıb. 1988-ci ildən 1989-cu ilədək Çuvaşiyanın Çeboksarı şəhərində, Çapayev qəsəbəsində yaşayan və V.İ.Çapayev adına hərbi zavod dəftərxanasında çalışan, ixtisasca filoloq olan Akop Arakilov (Bu zavod Dağlıq Qarabağ istiqamətində erməni hərbi terrorçu birləşmələrinə "Alazan" raketi satmaqla məşğul idi. Təkcə 1992-1993-cü illərdə bu zavoddan Xankəndiyə 98 ədəd "Alazan" raketləri satılıb) 1998-ci ildə Parisdə dərc etdirdiyi "Qarabağ qeydləri..." kitabında yazır: "...Meyitləri yandırmaq haqqında təsəvvürüm yox idi. Mən zavodda işləyərkən, yanıma gələnlər danışırdılar ki, Xocalıda ölənlər üçün qəbiristanlıq deyilən ərazi yoxdur... Dəfn olunmuş adamları gecə çaqqallar və itlər eşib çıxarırdılar. Hərbi hakim Smbat Mirzoyanın tapşırığı ilə meyitlərin yığılıb yandırılması qərara alındı... Mən "Alazan" üçün zavoda gələn zabitə sual verdim: "Bəs yaralılar? Bəs əsirlər?" Zabit Çebotaryan adlı ellim mənə anlatdı ki, yaralılar da öldürülmədən tonqallara atılır. Bundan sonra mən daha zavodda qala bilmədim... Ermənilər və Ermənistanı, Dağlıq Qarabağı bir daha görməmək üçün oranı tərk etdim...".

Xocalı soyqırımında iştirak etmiş ermənilərin və onların köməkçilərinin hərəkətləri insan haqlarının kobud pozulması, beynəlxalq hüquqi aktlara - Cenevrə konvensiyasına, Ümumdünya İnsan Haqları Bəyannaməsinə, vətəndaş və siyasi hüquqlar barədə Beynəlxaq Sazişə, Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinə, həyasızcasına məhəl qoyulmamasıdır.

Xocalı sakinlərinin, elə bütöv müstəqil Azərbaycanın da ümidlə baxdığı Ali Baş Komandan, Prezident İlham Əliyevin düzgün və müdrik siyasəti nəticəsində torpaqlarımızın işğaldan azad olunacağı gün uzaqda deyil. İnanırıq ki, şəhidlərimizin qanı yerdə qalmayacaq!

***Dilqəm Quliyev,***
***pedaqogika üzrə elmlər doktoru, professor***

## Qadın güləşçilərimiz Türkiyədə təlim-məşq keçirlər

Qadın güləşçilərdən ibarət yığmamız Türkiyədə növbəti təlim-məşq toplanışı keçir.

Hazırlıqlara Ədirnədə start verən millimiz martın 4-dək burda çalışacaq. Baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında heyətdə Türkan Nəsirova, Şahanə Nəzərova (hər ikisi 50 kq), Tatyana Varansova (53 kq), Alyona Kolesnik (57 kq), Tatyana Omelçenko, Elmira Qəmbərova (hər ikisi 62 kq), İrina Netreba, Elis Manolova (hər ikisi 65 kq), Ceyla Nağızadə (68 kq) və Səbirə Əliyeva (76 kq) yer alıblar.

Həm fiziki, həm də taktiki-texniki hazırlıq üzərində çalışacaq yığmamız Türkiyə, Monqolustan və Hindistan güləşçiləri ilə birgə toplanış keçir.

* * *

Yunanıstanın paytaxtı Afinada 15 yaşadək güləşçilər arasında "Acropolis Cup" keçirilib.

Yarış I-S dərəcəli beynəlxalq hakim Hicran Şərifovun rəhbərliyi ilə həyata keçirilib. Dünya Güləş Birliyi (DGB) bu vəzifəni məhz həmyerlimizə həvalə edib. İki günlük turnirdə güləşin hər 3 növü üzrə mübarizə baş tutub.

Qeyd edək ki, təcrübəli referi Pekin-2008, London-2012 və Rio-2016 Yay Olimpiya Oyunlarında hakimlik edib.

# Formula-1

## "MotoGP" yeni cəza tətbiq edə bilər

"MotoGP" cəzalar siyahısına yeni cərimə növü əlavə etməyə hazırlaşır. Qaydanı pozmuş yürüşçü motosikletini trasın əsas hissəsinin hüdudlarından kənarda yerləşən və xüsusi nişan qoyulmuş sahədən sürməli olacaq. Bu ideya ilk dəfə Qətər testlərində sınaqdan keçirilib. Motoyürüşçü Valentino Rossinin sözlərinə görə, bu yolla cəzalandırılan yürüşçülər üç saniyədən çox vaxt itirirlər.

Yürüşçülərin ilkin rəyləri müsbətdir. Odur ki, yeni sistem, çox güman, Qətərdə mövsümün açılışı ərəfəsində rəsmi olaraq "MotoGP" qaydalarına daxil ediləcək. Bu sistem yürüşçüləri bir mövqe geri atan mövcud praktikanı əvəzləmək üçün işlənib hazırlanıb. Qayda "MotoGP" mərhələlərinin çoxunda tətbiq ediləcək. Lakin elə traslar var ki, orada xüsusi cəza zonasının yaradılması üçün yer yoxdur.

45 yaşlı Bulye 2010-cu ildən "Renault-/Lotus" komandasının rəhbəri vəzifəsində çalışıb. Komanda həmin illərdə pilot Kimi Raykkonenin səyi ilə iki Qran-Pri qazanıb. 2014-cü ildə "McLaren"in başçısı olan Erik ötən ilin iyulunda - mövsümə uğursuz başlayan Böyük Britaniya komandasının rəhbərlikdə dəyişikliklər aparması nəticəsində vəzifəsindən ayrılıb.

* * *

Mayın 17-dən 19-dək Hollandiyanın Zandfort şəhərində "Jumbo Racing Days" ənənəvi avtomobil idmanı festivalı keçiriləcək. Maks Ferstappen bu festival çərçivəsində "Red Bull Racing" bolidinin sükanı arxasında nümunəvi yürüşləri yerinə yetirəcək.

Pilot tamaşaçıları şənbə və bazar günü əyləndirəcək.

Ötən il olduğu kimi, "Jumbo Racing Days" festivalının keçirilmə dövrü "WTCR" kuzov çempionatının Hollandiya mərhələsi ilə üst-üstə düşür. O vaxt Maks Ferstappen pit-leyndə yalnız qonaq olsa da, tamaşaçıların təkcə şou-çıxışları izləməyəcəyinə şad idi.



* * *

"McLaren" komandasının sabiq idman direktoru və "Renault/Lotus"un rəhbəri olmuş Erik Bulye Formula 1 yarışlarının Fransa Qran-Pri mərhələsinin təşkilatçılar komandasında vəzifə alıb.



Bulye yürüşlərin səfiri qismində çalışacaq, həm də idman və strateji müşavir vəzifələrini icra edəcəkdir. "Fransa Qran-Prisi mənim üçün böyük əhəmiyyət daşıyır və bu iri avtomobil idmanı tədbirinə öz töhfəmi vermək fürsətini səbirsizliklə gözləyirəm", - deyə E.Bulye bildirib.

* * *

Yaponiyanın böyüklüyünə görə üçüncü şəhəri sayılan Osakanın meri Formula 1 küçə yarışının burada keçirilməsini istəyir. Merin planına əsasən, "Kral yürüşləri"nin mərhələsi 2025-ci ildə Dünya Sərgisinin keçiriləcəyi yerdə - süni yaradılacaq adada təşkil olunmalıdır.

Şəhər meri Xirofumi Yosimura mətbuat konfransında Osaka Qran-Prisinin Yumesima adasında keçirilməsini çox arzu etdiyini bildirib.

X.Yosimura adada kazinonun da daxil edildiyi əyləncə kompleksinin tikintisi layihəsinin kapital qoyuluşuna sponsorlar axtarır. Bu yürüş Formula 1-in Yaponiyada ilk küçə yürüşü ola bilər. Yaponiya Qran-Prisi hazırda Suzukada keçirilir. Burada 1987-ci ildən 30 mərhələ təşkil edilib.

Ötən il Suzuka Yaponiya Qran-Prisinin 2021-ci ilədək keçirilməsi barədə müqavilənin müddətini artırıb. Beş il bundan əvvəl Kamui Kobayasinin "Caterham"dakı dövründən indiyədək Formula 1 yürüşlərində bir yaponiyalı belə iştirak etməyib.

Dünya Sərgisi 1967-ci ildə Monrealda süni yaradılan Notr-Dam adasında keçirilib. Hazırda həmin adada Kanada Qran-Prisi təşkil edilir. Əbu-Dabi Qran-Prisi də, həmçinin süni yaradılan Yas adasında keçirilir.

## DSX rəisi beynəlxalq turnirdə qələbə qazanan idmançılarla görüşüb



Fevralın 25-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev Tehranda keçirilmiş karate üzrə “Master Cup” beynəlxalq turnirində qələbə qazanmış “Sərhədçi” İdman Olimpiya Mərkəzinin idmançıları ilə görüşüb.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqəti sayəsində Azərbaycan idmanının sürətlə inkişaf etməsi, milli idmançılarımızın Olimpiya Oyunlarında və digər mötəbər idman yarışlarında ölkəmizi yüksək səviyyədə təmsil etmələri, Azərbaycan sərhədçilərinin də bu sahəyə töhfə verməyə çalışmaları qeyd olunub.

İdmançıları qazandıqları qələbələr münasibətilə təbrik edən general-polkovnik Elçin Quliyev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən Zəhra Salmanlının uğurlu çıxışının və vətənpərvərlik nümunəsinin yüksək qiymətləndirilərək hədiyyə ilə mükafatlandırılmasını Azərbaycan dövlətinin gənc idmançıların inkişafına diqqət və qayğısının növbəti ifadəsi olduğunu xüsusi vurğulayıb.

“Sərhədçi” İdman Olimpiya Mərkəzinin rəisi, polkovnik E.Mirzəyev mərkəzdə idmanın 26 növü üzrə komandaların fəaliyyət göstərdiyini, gənc idmançıların təkcə fiziki hazırlığına deyil, həmçinin tədrisinə, vətənə məhəbbət ruhunda tərbiyəsinə xüsusi diqqət yetirildiyini bildirib. O, Tehranda keçirilən və 1600-dən çox idmançının qatıldığı karate üzrə sonuncu “Master Cup” turnirində ölkəmizi təmsil edən “Sərhədçi” idman klubunun 12 idmançısından 7-sinin qızıl, 3-nün gümüş, 2-sinin bürünc medal qazandıqlarını, komandamızın ümumi hesabda ikinci yeri tutduğunu, idmançılarımızın Ermənistandan olan dörd rəqibini məğlub etdiklərini diqqətə çatdırıb.

Ən yüksək nəticə ilə Ermənistandan olan rəqibini mütləq üstünlüklə məğlub edərək turnirin qalibi olmuş 10 yaşlı Zəhra Salmanlının, Elnaz Soltanlının, Ülvira Rüstəmlinin və digər idmançılarımızın Azərbaycan Respublikasının dövlət bayrağının Ermənistan bayrağından aşağıda asılmasına dərhal reaksiya vermələrinin, dövlət bayrağımıza qarşı bu hörmətsizliyin aradan qaldırılmayacağı halda komandamızın turnirdə iştirakdan imtina edəcəyini bildirmələrinin və nəticədə bu xoşagəlməz halın aradan qaldırılmasının təmsilçilərimizin vətənpərvərliyinin, Vətən sevgisinin göstəricisi, dövləti maraqların müdafiəsinə əsl sərhədçi sədaqətinin ifadəsi olduğu qeyd edilib.

Turnirdə Azərbaycan Respublikasının dövlət himnini 7 dəfə səsləndirən, 12 dəfə dövlət bayrağımızı yüksəldən idmançılar Dövlət Sərhəd Xidmətinin rəisi tərəfindən fəxri fərman, komandanın məşqçisi Zöhrab Səfərov “Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə” medalı ilə təltif olunub. Bundan başqa, hər bir idmançıya Azərbaycan Respublikasının dövlət bayrağı və sərhədçi bereti hədiyyə edilib.

Çay süfrəsi arxasında davam etdirilən səmimi söhbət zamanı “Sərhədçi” idman klubunun üzvlərinin gələcək planları, iştirak edəcəkləri turnirlər, məşq şəraiti və digər məsələlər müzakirə olunub, gənc idmançılara hərtərəfli dəstəyin göstərilməsi barədə tapşırıqlar verilib.

— Yubiley —

## Şüa Hüseynovun 80 yaşı tamam olur

***Azərbaycanda ağırlıqqaldırma idman növünün inkişafında xüsusi əməyi olan Şüa Hüseynov 1939-cu il fevralın 27-də Gəncə şəhərində anadan olub. 15 saylı orta məktəbi bitirdikdən sonra Gəncə İnşaat Texnikumunda, 1958-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda, 1962-1967-ci illərdə isə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsində təhsil alıb.***



Şüa Hüseynov idman sahəsində bir mütəxəssis kimi 1955-ci ildən fəaliyyətə başlayıb və 1969-cu ilə qədər müxtəlif idman cəmiyyətlərində baş məşqçi işləyərək, 15 nəfərdən artıq idman ustası hazırlayıb. Bu illər ərzində o, idmançı kimi də müxtəlif uğurlar qazanıb. Belə ki, 1955-1957-ci illərdə Gəncə, 1958-1965-ci illərdə isə Azərbaycan çempionu olub. Həmçinin 20-dən artıq respublika rekordu əldə edib. Bacarıqlı ağırlıqqaldıran keçmiş SSRİ-nin müxtəlif miqyaslı yarışlarında mükafatalayiq yerlər tutub. Ağırlaqqaldırma üzrə idman ustası olan Şüa Hüseynov 1965-ci ildə keçirilən İran İslam Respublikası və Azərbaycan yığma komandalarının yoldaşlıq görüşündə I yerə layiq görülüb.

1967-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda (indiki ADBTİA) müəllim, baş müəllim kimi çalışıb. Təcrübəli mütəxəssis 1974-cü ildə elmlər namizədi, alimlik dərəcəsinə, 1980-ci ildə dosent, 1994-cü ildə isə professor adına layiq görülüb. O, 1978-ci ildən ADBTİA-da “Ağır atletika və boks” kafedrasının müdiri vəzifəsində çalışıb.

1974-cü ildə Beynəlxalq Ağır atletika Federasiyasının qərarına əsasən beynəlxalq dərəcəli hakim adına layiq görülən Şüa Hüseynov 30 il ərzində bir çox beynəlxalq, Avropa, dünya birinciliyi yarışlarında ədaləti qoruyub. 1980-ci ildə Moskvada keçirilən XXII Yay Olimpiya Oyunlarında hakimlik edərək xüsusi mükafata yiyələnib.

Şüa Hüseynov Bakı şəhər Ağır Atletika Federasiyasının sədri, 1967-1995-ci illərdə Respublika Ağır Atletika Federasiyasının (AAF) prezidenti kimi fəaliyyət göstərib, 1995-ci ildən isə federasiyanın fəxri prezidenti seçilib. O, AAAF-ın prezidenti olduğu müddət ərzində respublikamızın ağırlıqqaldıranları müxtəlif miqyaslı beynəlxalq yarışlarda yüksək nəticələr göstəriblər. 10 nəfərdən çox idmançımız keçmiş SSRİ, Avropa və dünya çempionatlarında mükafatçılar sırasında yer alıb. 1967-ci ildə keçmiş SSRİ Xalqları Spartakiadasında Azərbaycan komandası XVII yerə çıxdığı halda, 1986-cı ildə keçirilən analoji yarışda komandamız VI yeri tutub. Həmin spartakiadada 2 ağırlıqqaldıranımız - Hafis Süleymanov və Rizvan Həsənov bürünc medala layiq görülüblər. Qeyd edək ki, Hafiz Süleymanov 1989-cu ildə SSRİ, Avropa və dünya çempionu titullarını qazanıb.

Ölkəmizdə idmanın inkişafında və pedaqoji kadrların hazırlanmasında xüsusi nailiyyətlərinə görə, Şüa Hüseynova Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi adı verilib.

1991-ci ildən Milli Olimpiya Komitəsinin üzvü seçilən Şüa müəllim 50-dən çox elmi əsərin müəllifidir. Bu əsərlərdən bir qismi tədris və tədris-metodiki vəsaitdir. Dəyərli əsərlərin müəllifi olan professor Ş.Hüseynov Əməkdar müəllim fəxri adına daşıyır. Respublikamızın idman mütəxəssisləri məhz bu əsərlərdən istifadə edirlər.

2001-ci ildə Azərbaycan Prezidentinin Fərmanı ilə Şüa Hüseynov “Tərəqqi” medalı ilə təltif olunub.

Azərbaycan Ağır Atletika Federasiyası Şüa Hüseynovu 80 illik yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı azulayır!



## Komandamızın Kəmər sınağı uğurla başa çatıb

Türkiyənin Kəmər şəhərində xüsusi qayğıya ehtiyacı olan insanlar arasında stolüstü tennis üzrə beynəlxalq turnir keçirilib. Türkiyə, Azərbaycan və Kiprdən 600-dək idmançının qatıldığı yarışlarda ölkəmizi “Autizmlilər” İdman Klubu İctimai Birliyinin (İKİB) komandası təmsil edib. “Autizmlilər” İKİB-in sədri Elnur Məmmədovdan aldığımız məlumatda bildirilir ki, turnirdə uğurla çıxış edən komandamızın üzvləri Nicat Həmidov qızıl, Rza Bayramov və Xaqan Əliyev gümüş, Kamal Bayramov bürünc medal qazanıblar. Klubun atletika komandası apreldə Antalyada keçiriləcək beynəlxalq turnirdə çıxış edəcək.

Qeyd edək ki, klubda stolüstü tennis, atletika, velosiped idmanı, üzgüçülük üzrə bölmələr fəaliyyət göstərir. Bu yaxınlarda isə “Autizmlilər” futbol klubu yaradılıb.

## Çoxnövçülük idmanı üzrə çempionata yekun vurulub

Fevralın 20-22-də Fövqəladə Hallar Nazirliyi (FHN) işçilərinin Həmkarlar İttifaqı və idman-sağlamlıq klubunun birgə təşkilatçılığı ilə nazirliyin qurumları arasında çoxnövçülük idmanı üzrə çempionat keçirilib. Respublika Olimpiya Mərkəzində təşkil olunan tədbirdə çıxış edən Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov əvvəlcə Xocalı soyqırımı ilə bağlı həqiqətlərdən söhbət açıb, 27 il bundan əvvəl erməni vandallarının xalqımıza qarşı törətdikləri dəhşətli faciənin heç bir zaman yaddaşlardan silinməyəcəyini bildirib.

Sonra Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb. Ümumilikdə çempionatda 16 komandadan 70-ə yaxın idmançı iştirak edib. Yüz və min metr məsafəyə qaçış, hündürlüyə, uzununa tullanma və nüvəitələmə növlərində yarışan idmançılar həm şəxsi, həm də komanda hesabında mübarizə aparıblar.

Tofiq Əliyevin baş hakim olduğu çempionatda komanda hesabında birinci yeri FHN-in Dövlət Yanğından Mühafizə Xidməti, ikinci yeri FHN-in Akademiyası, üçüncü yeri isə Kiçik Həcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin komandası tutub.

Şəxsi göstəricilərə görə isə birinci yerə Pərviz Babayev (Xüsusi Riskli Xilasetmə Xidməti), ikinci yerə Saleh Qurbanov (Qarabağ Regional Mərkəzi), üçüncü yerə İsmayıl Qurbanzadə (Mülki Müdafiə Qoşunları) layiq görülüb.

Fövqəladə Hallar Nazirliyinin İdman-sağlamlıq klubunun rəisi, polkovnik Füzuli Musayev tədbirdə çıxış edərək bu yarışlarda ötən illərlə müqayisədə daha yüksək nəticələr əldə olunduğunu diqqətə çatdırıb.

Sonda komanda və şəxsi hesaba görə qalib gələn idmançılar diplom, kubok, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

## Yüksək Liqada fantastik hesab

Futzal üzrə Yüksək Liqanın XIX turunun sonuncu matçı EKOL-un qələbəsi ilə yanaşı, 42 və daha çox qolun vurulduğu oyun kimi də yadda qalıb. Cari mövsümdə ən çox qolun vurulduğu və fərqin qeydə alındığı matç çempionatlar tarixinin üçüncü ən məhsuldar qarşılaşmasıdır. Belə ki, ən çox qolun vurulduğu oyun 2010/2011-ci il mövsümündə olub. “Araz”-”Azecolab” dueli 54:4 hesabı ilə yekunlaşıb. Görüşdə ümumilikdə 58 qol vurulub. İkinci yerdə isə EKOL- “Saray” qarşılaşması yer alır. 2009/2010-cu il mövsümündə keçirilmiş matç 57:0 hesabı ilə birincilərin xeyrinə başa çatıb. Bu oyun məhsuldarlığa görə ikinci, fərqə görə isə birinci yerdə qərarlaşıb.

EKOL- “Liman” oyununda isə 42 qol vurulub. EKOL-un 38 qoluna “Liman” 4 dəfə qarşılıq verib. Yeri gəlmişkən, hazırkı çempionatın arxada qalan oyunlarının heç birində 34 top fərqi qeydə alınmayıb. Onu da qeyd edək ki, 34 top fərqli qələbə çempionatlar tarixində 10-cu sıradadır. Ən fərqli hesab isə elə EKOL-a məxsusdur - 57 top.



## Yeniyetmə karateçilərimiz beynəlxalq turnirdə uğurla çıxış ediblər

İranın Astara şəhərində kyokuşin karate üzrə beynəlxalq turnir keçirilib. IV Beynəlxalq Karate Festivalında Azərbaycandan 90-dək idmançı medal uğrunda mübarizə aparıb.

Karate üzrə 7 qat dünya, 6 qat Avropa çempionu, Əməkdar məşqçi Siyavuş Bayramovun çalışdırdığı “Araz”, “Fortuna” və “Vətən” idman klublarının təmsilçiləri yarışları uğurla başa vurublar. Məşqçinin “Olimpiya dünyası” qəzetinə verdiyi məlumata görə, onun yetirmələri vətənə 10 medalla qayıdıblar. Belə ki, “Vətən” İdman Klubunun təmsilçiləri yarışlarda 2 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıblar. Qızıl medalı komandamıza karate yarışlarında Xasay Məhərrəmov (10-11 yaşlılar arasında) və katada Əli Məmmədli (10-13 yaş) qazandırıb. Rza Maqsudlu (6-7 yaş) gümüş, İdris Məmmədzadə (8-9 yaş) isə bürünc medala layiq görülüb.

“Fortuna” İdman Klubunun idmançıları ümumilikdə, 3 (2 qızıl, 1 bürünc) medala sahib olublar. Rza Rzazadə (16-17 yaş) və Turan Cəbrayılov (12-13 yaş) bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsində qərar tutublar. Nihat Əfəndi (12-13 yaş) isə yarışları 3-cü yerdə başa vurub.

“Araz” İdman Klubunun idmançıları isə yarışları 3 medalla başa vurublar. Birinci olmağı bu klubun təmsilçilərindən Ülvi Quliyev (14-15 yaş) bacarıb. Onun komanda yoldaşları Azər Qasımov (10-11 yaş) və Fazil Məcidov (14-15 yaş) isə bürünc medala layiq görülüblər.

Qarşıda yeniyetmə karateçilərimizi mart ayında Bakıda karatenin 40 illiyi münasibətilə keçiriləcək Baku-Open beynəlxalq turniri gözləyir.



## Hakimlərimiz FİNA rəsmiləri siyahısında

Azərbaycan Üzgüçülük Federasiyasının (AÜF) tarixində ilk dəfə olaraq 2 hakimimiz rəsmi məktəb tamamlayaraq beynəlxalq hakim adını alıblar.

Makedoniyanın Skopye şəhərində Beynəlxalq Su İdman Növləri Federasiyasının (FİNA) təşkil etdiyi beynəlxalq hakimlik məktəbində iştirak edən AÜF-in vitse-prezidenti Elçin Həsənov və üzgüçülük üzrə milli komandanın baş məşqçisi Rəşad Əbdürəhmanov təmsil ediblər.

Təmsilçilərimiz iki gün davam edən nəzəri və praktiki tədbirin sonunda imtahan verərək yüksək bal qazanıb və AÜF-in tarixində ilk dəfə olaraq rəsmi məktəb tamamlayaraq beynəlxalq hakim adını alıblar.

E.Həsənov və R.Əbdürəhmanovun adı 2019-2022-ci illərdə FİNA rəsmiləri siyahısına salınıb.




*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# İdman zərif varlıq olan qadını daha da gözəlləşdirir

***Hər bir xalqı, dövləti dünyada tanıdan milli mənəvi dəyərlər var: musiqi, ədəbiyyat, tarix və sair. İdman da bu dəyərlər sırasındadır. Təsadüfi deyildir ki, bu gün beynəlxalq aləmdə müxtəlif sahələrdə fərqlənən ölkələr həm də idmanda öz sözlərini deməyi bacarırlar.***

***Heç kəsə sirr deyil ki, Azərbaycanda da idmanın və bədən tərbiyəsinin inkişafı dövlətin diqqət və qayğısı ilə əhatə olunub. Əldə edilən nailiyyətlər, mötəbər yarışlara uğurlu ev sahibliyi göstərir ki, ölkəmizdə idman yüksək səviyyədə inkişaf edir. Bu, həm də idmanımızın tarixi ənənəsindən xəbər verir.***

Hələ “Kitabi-Dədə Qorqud”, “Koroğlu”dastanında, habelə digər ədəbiyyat nümunələrində igidlərimizin at çapmaları, qılınc oynatmaları ustalıqla təsvir olunub. Həmin əsərlərdə qadın və kişiyə fərq qoyulmur. Qadınlarımız da lazım gəldikcə kişilərlə birgə vuruşur, döyüşlərə gedirlər. II Kirin başını kəsən mərd Tomris, Ağqoyunlu dövlətinin yaranmasında və formalaşmasında böyük xidmətləri olan, ilk diplomat qadınımız Sara xatun və digərləri çoxlarına məlumdur. Onlar dəfələrlə sübut ediblər ki, doğrudan da, aslanın erkəyi dişisi olmaz.

Elə isə bir sual ortaya çıxır. Nə üçün müsir dövrümüzdə qadınların idmanla məşğul olmalarına birmənalı yanaşılmır, hətta buna görə bəzən onlar qınaq obyektinə çevrilir? Axı bizim Zemfira Meftaxetdinova, Zülfiyyə Hüseynova, Kifayət Qasımova, Aynur Sofiyeva, Ramilə Kaştayeva (Yusubova), İlahə Qasımova və başqaları kimi müxtəlif idman növlərində yüksək nəticələr qazanıb, uğurları ilə gənclərimizə örnək olan xanım idmançılarımız var.

## Gərək hər zaman sağlamlığın qayğısına qalasan

Statistikalara fikir versək görərik ki, bu gün ölkəmizdə idmanla məşğul olan qadınlar kişilərə nisbətən dəfələrlə azdır. Bu xoşagəlməz halla bağlı olaraq müxtəlif səbəblər göstərilir. Düşünülür ki, idman qadınları kobudlaşdırır. Hətta idmanın qadın orqanizmi üçün ziyanlı olduğunu da israr edənlər də var. Əsas odur ki, qızlar da idmanla sərbəst məşğul ola bilsinlər. Həvəskar və ya peşəkar şəkildə olmasından asılı olmayaraq bu və ya digər idman növünün sirlərinə yiyələnmək onlar üçün çox lazımlıdır. İdman bədəni gücləndirir, qan-damar sisteminin, ürəyin normal işini təmin edir. İkinci bir tərəfdən asudə vaxtın səmərəli keçirilməsinə şərait yaradır. Hansı idman növü ilə məşğul olmağın o qədər də fərqi yoxdur. Əsas odur ki, həvəs olsun. Döyüş idman növləri ilə məşğul olmaq zərif cins nümayəndələri üçün heç də qorxulu deyil. Əksinə, bu kimi idman növləri artıq çəkidən tez bir zamanda azad olmağa yardım edir, qızlarda özünəinam hissi aşılayır. Beləliklə, onlar nəinki idmanda, digər sahələrdə də daha inamlı addımlar atırlar.







Əksəriyyət düşünür ki, idman bölmələrində məşq etmək zərif cins nümayəndələrini kobudlaşdırır. Qəribədir ki, adətən valideynlər, xüsusilə atalar bu fikri təsdiqləyirlər. Aparılan araşdırmalara görə “kobudlaşma” deyilən hal sadəcə əzələlərin inkişafıdır. Bildiyimiz kimi, hər insan bədəninin müxtəlif nahiyyələrində əzələlər yerləşir. İnsan passiv həyat tərzi keçirəndə, hərəkət etməyəndə, həmin əzələlər də “yatır” və bəzən də inkişafdan qalır. Təsadüfi deyil ki, adətən oğlanlar qızlara nisbətən cüssəli, hündür boy olurlar. Çünki oğlanlar hərəkətə daha çox meyillidirlər. Hələ kiçik yaşlarında qızlar evlərində gəlinciklə oynayanda oğlanlar həyətdə qaçdı-tutdu, gizlənqaç oynayırlar. Bir sözlə idmanla məşğul olan zaman əzələlər inkişaf edir. Bu da zahiri görkəmdə müəyyən fərqlərlə müşahidə olunur. Məsələn çiyin əzələləri böyüdükcə, çiyinlərarası məsafə də enli olur. Bu, qətiyyən kobudlaşma deyil, əksinə, sağlamlığın göstəricisidir. Gərək sağlamlığının qayğısına qalasan. Əks halda ciddi problemlər yarana bilər. Müasir zamanda öz sağlamlığına və bədən quruluşuna biganə qalmayan qadınlar bəzən bodibildinqə (fitnes) böyük maraq göstərirlər. Lakin bu, heç də birmənalı qarşılanmır. Qadın öz incəliyini qorumağı da bacarmalıdır. Belə ki, bodibildinq bədəni bərkidir və həddən artıq əzələli bədəni ona kobud görkəm verir. Kişilərlə müqayisədə qadınların bu növə maraq göstərməsi onların sağlamlığında fəsadlar törədə bilər. Çünki qadınlar üçün ciddi nəticələrə nail olmaq daha çətindir. Qadınların qanında testosteronun səviyyəsi kişilərlə müqayisədə 25 dəfə azdır və bu da əzələlərin müqayisə edilməməsi deməkdir.

## Gigiyena normalarına əməl olunması ən vacib amildir

Müxtəlif dövrlərdə qadınların ideal bədən quruluşu, onların idmana yönəldilməsi barədə təzadlı fikirlər səsləndirilib. Məsələn XIX əsrdə kök və bir qədər güclü qadınların bədən quruluşu ideal hesab edilirdisə, XXI əsrin əvvəlində bu, özünü arıq bədən quruluşu ilə əvəz etməyə başladı. Təbii ki, bu cür bədən quruluşu anadangəlmə olmur: bunun üçün uzun müddət və səylə çalışmaq lazımdır. Qidalanmaya nəzarət etmək, müntəzəm şəkildə idmanla məşğul olmaq vacib şərtdir. Qərb mədəniyyətində qadının idmana cəlbi bu cür təzahür olunur: “Hər şey qadının öz əlindədir”. Avropa mütəxəssisləri belə hesab edirlər ki, qadınlar idmanla məşğul olmaqla həm özlərini kobudlaşdıra, həm də zahiri görkəmlərini gözəlləşdirə bilərlər.

Qərbdə güc tələb edən qadın idmanı hələ ötən əsrin ortalarından tətbiq edilməyə başlayıb. Qadınların bir çoxu bədən quruluşunu müxtəlif idman növləri ilə “nizamlamağa” tənqidi yanaşırlar. Onlar üçün aerobika ilə məşğul olmaq, qaçışa üstünlük vermək, ən cəsarətli idman hesab edilən bodibildinqlə məşğul olmaq orqanizmə zərərdir. Lakin həkimlər əzələləri möhkəmləndirmək üçün böyük çəki ilə işləmək lazım olduğunu vacib bilərək qeyd edirlər ki, həm kişilər, həm də qadınlar eyni məşğələni yerinə yetirə bilərlər. Onların orqanizmlərində gedən kimyəvi proseslər isə fərqlənir. Belə olan halda qadın əzələləri həcminə görə bəzən kişi əzələlərindən geri qalacaq, lakin eyni sağlamlıq mahiyyətini itirməyəcək. Ona görə həkimlər qadınların fitnes və ya ağırlıqqaldırma ilə məşğul olmazdan öncə bunlara riayət etmələrini vacib bilirlər:

- məşqə tələsmədən başlamaq, böyük yüklərdən (alətlərdən) istifadə etməmək;
- bədənin yüklərə necə reaksiya verdiyini hiss etmək;
- məşq edərkən nəyin necə edildiyini yadda saxlamaq;
- ağır məşqlərə girməmək;
- düzgün nəfəs almağı öyrənmək, əsas tapşırıqları mənimsəmək və onları düzgün yerinə yetirməyə çalışmaq;
- məşğələlərə trenajorlardan başlamaq, onların köməyi ilə əsas texnikanı mənimsəmək asan olacaq.

## Qorxu ilə ehtiyatlılığı təmin etməyi eyniləşdirmək düzgün deyil

Etiraf etmək lazımdır ki, idmanda zədə amili qaçılmazdır. Bəzi qızlar da elə bu səbəbdən təkmübarizlik idman növlərindən uzaq durmağa çalışır, daha təhlükəsiz idman növü hesab edilən gimnastika ilə məşğul olmağa üstünlük verirlər. Zədələrdən qorxmaq lazım deyil. Qorxu ilə ehtiyatlılığı, təhlükəsizliyi təmin etməyi eyniləşdirmək düzgün deyil. Hətta belə bir misal da var ki, qorxan gözə çöp düşər. Məşqdə müəllim nəzarəti altında olan idmançı heç bir ciddi zədə ala bilməz. Ən pis halda əli, ayağı yüngül burxula bilər. Doğrudur ki, idmanda ciddi zədələr də olur. Ancaq bu, artıq peşəkar idmanda, xüsusən isə yarış vaxtı olur. Peşəkar idmanla məşğul olmaq istəyənlər gərək əvvəlcədən bunu nəzərə alsınlar. Lakin vurğulanmalıdır ki, peşəkar idmanla məşğul olmaq şərt deyil. Əsas odur ki, əzələlər inkişaf etsin, qamət düzəlsin, sağlam həyat tərzi formalaşsın. Bəzən görürsən ki, şagirdlər bellərini əyərək gəzirlər. Çünki idmanla məşğul olmurlar. İdmanla məşğul olan, müəyyən hərəkətləri yerinə yetirən uşaq, yeniyetmə və ya gənc heç vaxt belini əyərək gəzməz. Bəzilərinin çəkiləri, boyları yaşları ilə mütənasib olmur. Bu, bir çox hallarda irsən keçsə də, sonradan düzəldilməsi mümkün olur. Bəstəboyluların basketbolla, voleybolla, üzgüçülüklə məşğul olmaları məsləhət görülür. Kök uşaqlar isə gün ərzində mütləq bir neçə saat hərəkətdə olmalıdırlar.

## Elə bir idman növü yoxdur ki, bədən quruluşuna təsir etməsin

Mütəxəssislər bildirir ki, idmanın insan orqanizminə təsirində qidalanma da mühüm rol oynayır. Məşqə qədər karbohidrat, məşqdən sonra isə zülal qəbul etmək lazımdır. Xüsusilə güc tələb edən olunan idman növlərində bu cür







bölgüdən imtina emək orqanizmin normal işinin pozulmasına səbəb ola bilər. Günümüzün reallığı budur ki, gənclər ayaqüstü qidaları sevirlər. Bu isə nəinki hər kəs, o cümlədən də idmançılar üçün olduqca ziyanlıdır.

Müşahidələr göstərir ki, bədən quruluşunu dəyişmək istəməyən qadına rast gəlmək çox çətindir. Əlbəttə ki, söhbət ilk növbədə artıq çəkidən azad olunmaqdan gedir. Bunun üçün isə onlar daha çox trenajor, fitnes və üzgüçülük bölmələrinə üz tuturlar. Adıçəkilən idman növlərinin insan orqanizminə faydalı cəhətləri aşağıdakılardır:

- qısa müddətə artıq çəkidən azad olmaq;
- əzələ kütləsinin lokal yolla təkmilləşdirilməsilə uyğun bədən forması əldə etmək;
- orqanizmdə metabolizm prosesini sürətləndirmək;
- qadın bodibildinqinin fəsadlarından qorunmaq;
- ürək-damar fəaliyyətini tənzimləmək;
- əzələ kütləsini tez bir zamanda formaya salmaq.

Elə bir idman növü yoxdur ki, bədən quruluşuna təsir etməsin. Üzgüçülük də bu qəbildəndir. Üzgüçülük digər idman növlərinə nisbətən qadınlar arasında kütləvilik təşkil etsə də, bu idman növünün bədəni kobudlaşdırdığını düşünərək ondan uzaq duranlar da var. Məsələ ilə bağlı üzgüçülük üzrə IV İslam Həmrəyliyi Oyunlarının bürünc mükafatçısı Fatimə Alkərəmova ilə həmsöhbət olduq. O, belə hesab edir ki, üzgüçülük bədəni formaya salmaq üçün ən ideal idman növüdür. “Üzgüçülük bədəndəki bütün əzələləri işlədən yeganə idman növüdürsə, onun hansı qüsurlarından söhbət gedə bilər? Üzgüçülük bədəni kobudlaşdırmır. Əksinə, onu normal formaya salır. Doğrudur ki, üzgüçülüklə məşğul olanların çiyinləri enli olur. Ancaq, bəlkə də, normal bədən quruluşu məhz belə olmalıdır. Əminliklə deyə bilərəm ki, çiyinlərin bir az enli olması heç kəsi kobud, çirkin göstərmir. Bu, həmin insanın idmanla məşğul olmasına işarədir. İdmanla məşğul olanlara isə cəmiyyətdə həmişə rəğbət var. Həm də üzgüçülüyün o qədər faydaları var ki...Bu idman növü bədəni sağlam edir, immuniteti möhkəmləndirir, sinir sistemini yaxşılaşdırır...Məncə, bədən quruluşunun qayğısına qalmaq istəyən hər kəs, xüsusilə qadınlar üzgüçülüklə məşğul olmalıdırlar. Özləri də görəcəklər ki, heç bir mənfi dəyişiklik baş verməyəcək.”

Hazırda dünyada bütün idman növləri sürətlə inkişaf edir. Əlbəttə, həm kişilər, həm də qadınlar istədikləri idman növü ilə sərbəst şəkildə məşğul ola bilərlər. Müasir dövrümüzdə ölkəmizdə az da olsa təkmübarizlik idman növlərinin ilə, o cümlədən güləşin sirlərinə yiyələnən qızlar var. Onlardan biri də Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı Şahanə Nəzərovadır. Şahanə hesab edir ki, idmanla məşğul olmaq cəmiyyətə inteqrasiya etməyin bir göstəricisidir. “Ölkəmizdə idman günü-gündən inkişaf edir. Bundan yaxşı nə ola bilər ki? Hər gün yeni klublar, cəmiyyətlər fəaliyyətə başlayır. Gərək yaradılan şəraitdən istifadə edəsən. Həm də evdə nə qədər oturmaq olar ki? Sevinirəm ki, son illər qızlar da idmana həvəs göstərirlər. Hətta ağırlıqqaldırma ilə, boksla, güləşlə məşğul olan qadınların da sayı artıb. Bəlkə də, cəmiyyətin tərəqqisi bunu tələb edir. İdman dostluq, yoldaşlıq deməkdir, sülh carçısıdır. Ona görə də idmanla məşğul olmaq şərtdir. Deyə bilmərəm ki, qızlar hansı idman növü ilə məşğul olsunlar. Seçimi insan özü etməlidir. Ancaq güləşlə də məşğul ola bilərlər. Əgər güləş qızları kobudlaşdırsa idi, heç mən də məşğul olmazdım.”

Göründüyü kimi, idmanla məşğul olmaq cins fərqinə baxmır. Qadın və ya kişi olmasından asılı olmayaraq hər kəs öz sağlamlığının qayğısına qalmalıdır.

Amma gərək yadda saxlayaq ki, qadının etdiyi ağır məşqlər səhvi bağışlamır. Bu da qadında gözəllik yox, kobudluq yaradır ki, bundan da xilas olmaq mümkünsüzdür: bədən öz quruluşunu itirir, orqanizmin inkişafında axsamalar yaranır. Yəni ağır idman qadında “dəmir bədən” formalaşdırır. Öz zəngin mənəviyyatı ilə yanaşı, xarici görünüşü ilə digər qadınlardan hər zaman seçilən Azərbaycan xanımlarına kobudluq yox, elə bu incəlik, zəriflik yaraşır.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

## Qış Olimpiya oyunlarının tarixi

# "Ağ olimpiadanın hərarəti" sərt qışın soyuğuna qarşı






*(əvvəli ötən saylarımızda)*

### VI Qış Olimpiya Oyunları

**1952 (Oslo)**
**14-25 fevral**

VI Qış Olimpiya Oyunlarında 30 ölkədən 694 idmançı iştirak edirdi.

**Proqram**

Olimpiadanın proqramında yenidən dəyişikliklər edildi. Qadınlar ilk dəfə 10 km məsafəyə xizək yarışlarında qüvvələrini sınadılar. Proqramda klassik üçnövçülük üzrə dağ xizəyi yarışları da nümayiş etdirildi.

**Nəticələr**

Norveç 104,5 xalla (16 medal - 7 qızıl, 3 gümüş və 6 bürünc) I, ABŞ 77,5 xalla (11 medal - 4 qızıl, 6 gümüş və 1 bürünc) II, Finlandiya 63 xalla (9 medal - 3 qızıl, 4 gümüş və 2 bürünc) III yerə sahib oldu.

Norveç qış idman növlərinin güclü inkişaf etdiyi ölkə kimi tanınır. Statistik nəticələrə görə, norveçlilər bu vaxta kimi təşkil edilən 5 qış olimpiadasından 3-ündə ən yüksək nəticələrə imza atmışdılar. Turleyf Hauq, İvar Ballanqrud və Sonya Heni kimi Norveç təmsilçiləri qış olimpiadası tarixində özünəməxsus idman nailiyyətlərindən olan məşhur idmançılar idi.

Bütün Norveç əhalisi VI Qış Olimpiya Oyunlarında iştirak edəcək 30 ölkənin nümayəndəsini qarşılamağa hazırlaşırdı. Oyunların məşəl estafeti üçün maraqlı marşrut xətti hazırlanmışdı. Olimpiya məşəlini məşhur norveçli səyyah Fritof Nansenin nəvəsi Egil Nansen alovlandırdı.

### Yarışların çətinliyi məqsədə çatmağa mane olmur

Oslo Olimpiya Oyunlarının qəhrəmanı 20 yaşlı Norveç təmsilçisi Yalmar Andersen oldu. 5000 m məsafəyə yarışlarda Ballanqrudun Olimpiya rekordunu təzələyən Andersen 10. 000 m məsafədə yarışlarda da eyni nəticəni göstərdi. O, bu yarışların ən güclü stayeri hesab olunurdu. Lakin 1500 m məsafəyə yarışlarda Yalmarın bəxti gətirmədi. Villem Van der Vort 2 dəq. 18 san. nəticə göstərərək rəqibini qabaqladı.

Yarışlardan əvvəl güclü qar yağdı. Yürüş yolu birdən-birə ağappaq örtüyə büründü. Sürüşmə ehtimalı get-gedə güclənirdi. Bu da təbii olaraq, idmançıların işini çətinləşdirirdi. Van der Vort həyacandan tempi itirmişdi. Axırıncı dövrədə bəxti gətirən norveçli rəqibini 0, 2 san qabaqlayaraq yarışların qalibi olur.

### "Mora Nisse" kim idi?

Xizək yarışlarında 80 idmançı yarışırdı. Bundan əvvəlki olimpiadada uğurla çıxış edən İsveç idmançıları bu dəfə məğlubiyyətlə üzləşdilər. Hallqeyr Brendenin göstərdiyi yüksək nəticə (1 saat 1 dəq 34 san) qızıl medalla nəticələndi və o, xizək yarışlarında öz ölkəsinə 20 ildən sonra qızıl medal qazandıran idmançı kimi məşhurlaşdı. Brendendən sonra xizək yarışlarındakı qızıl medalları fin idmançıları bölüşdürdülər. 5-ci yeri məşhur İsveç idmançısı "Mora Nisse" ləqəbli Niss Karlson (Mora-xizəyin vətəni, Nisse-əjdaha deməkdir) tutdu.

Mora Nisse 50 km məsafəyə yarışlarda qələbəsinə tam əmin idi. O, nəyin bahasına olursa olsun, ölkəsini medalsız qoymaq istəmirdi. 35 yaşlı idmançı ancaq və ancaq qələbə haqqında düşünürdü. Bu yarışlarda ümidləri doğrulmayan Karlson yalnız 6-cı yerlə kifayətlənlənməli oldu. Nissenin ümid etdiyi qızıl medalı Finlandiya idmançısı Veyko Hakulinen qazandı.

### 3-cü yer uğrunda

Hokkey turnirində Kanada yığma komandası favorit idi. II yerin sahibi ABŞ təmsilçiləri oldu. Çexoslovakiya və İsveç Olimpiya yığması eyni xal topladığından III yerə layiq ölkənin adı açıqlanmamışdı. Qaydaya görə qalibi müəyyən etmək üçün vurulan və buraxılan şaybaların sayını hesablamaq lazım gəlirdi. Maraqlıdır: şaybaların sayı da eyni (29) idi. Komandaların şaybaya münasibət məsələsi mübahisəli məsələnin həllində axırıncı çıxış yolu idi. Nəhayət, Çexoslovakiya hokkey yığması (2, 61 - 2,53-ə qarşı) VI "Ağ Olimpiada"nın bürünc medalına sahib oldu.

### VII Qış Olimpiya Oyunları

**1956 (Kortina D Ampetso)**
**26-yanvar-5 fevral**

VII Qış Olimpiya Oyunlarında 32 ölkədən 821 idmançı iştirak edirdi. Kortina D Ampetso Olimpiadası iştirakçı ölkələrin və idmançıların sayına görə yaddaqalan yarışlardan oldu.

**Proqram**

Proqramda bəzi dəyişikliklər edildi. Kişilər arasında keçirilən 18 km məsafəyə konki yarışları proqramdan çıxarıldı. Bunun əvəzinə proqrama 15 və 30 km məsafəyə xizək yarışları salındı. Xizək idmanının təmsilçiləri ilk dəfə 3 x 5 km məsafəyə estafet yarışlarında qüvvələrini sınadılar.

**Nəticələr**

Kortina D Ampetso-1956 Olimpiadasının nəticələrinə görə mükafatalayiq yerlərə SSRİ, Avstriya və Finlandiya idmançıları layiq görüldülər. Beləliklə, SSRİ yığma komandası 103 xalla I (16 medal-7 qızıl, 3 gümüş və 6 bürünc), Avstriya 66,5 xalla II (14 medal-4 qızıl, 3 gümüş və 4 bürünc), Finlandiya 57 xalla III (7 medal-3 qızıl, 3 gümüş və 1 bürünc) yeri tutdu.

VII Qış Olimpiya Oyunları 1956-ci il yanvar ayının 26-da Kortina D Ampetsoda açıq elan edildi.

Beynəlxalq Olimpiya Komitəsi tərəfindən VII "Ağ Olimpiada"nın paytaxtının adı açıqlandıqdan dərhal sonra İtaliyanın kurort şəhəri Kortina D Ampetsoda hazırlıq işlərinə start verildi. Açılış mərasiminə qədər dörd mərtəbəli nəhəng stadion tamaşaçıların və idmançıların ixtiyarına verildi. Fiqurlu konkisürmə və hokkey yarışları bu stadionda keçirilirdi. İstifadəyə verilən "İtaliya" tramplini dünyanın ən möhtəşəm idman komplekslərindən sayılırdı.

### SSRİ idmançıları fəallıq göstərirdilər

Qadınlar arasında xizək yarışlarında ilk qızıl medal sovet idmançısı Lyubov Kozurovaya nəsib oldu. 26 yaşlı idmançı bu yarışlarda əla nəticələrə imza ataraq yüksək titula -Oimpiya çempionu adına layiq görülür.

Sovet idmançıları kişilər arasında keçirilən xizək yarışlarında da fərqləndilər. Fedor Terentev, Pavel Kolçin, Nikolay Anikin və Vladimir Kuzin (4x10 məsafəyə estafet) komanda yarışlarının qalibi oldular.

### Rekordlar bir-birini əvəz edirdi

Konki yarışları yüksək dağ gölü Mizurində keçirilirdi. Yarışlar üçün ideal şərait yaradılmışdı. Buzun keyfiyyəti yüksək səviyyədə idi. Bu yarışlarda sovet idmançısı Yevgeni Qrişinin gözəl oyun nümayiş etdirməsi ölkə və dünya mətbuatında geniş şəkildə işıqlandırıldı. Olimpiadadan əvvəl İtaliya birinciliyi uğrunda keçirilən 500 m məsafəyə yarışlarda 40,2 san nəticə göstərən idmançı, VII Qış Olimpiya Oyunlarında da bu məsafəyə yarışlarda eyni nəticəni göstərdi. Xatırladaq ki, 1924-1952-ci illər ərzində təşkil olunan konki yarışlarında dünya rekordunu müəyyən etmək heç bir idmançıya nəsib olmamışdı. SSRİ təmsilçisi Yevgeni Qrişin bu səddi keçməyi bacarmışdı. İstedadlı idmançının nailiyyətləri bununla bitmirdi. Belə ki, 1500 m məsafəyə yarışlarda qış Olimpiya oyunları və konki idmanı tarixində qeyri-adi nəticə qeydə alınmışdı: Qrişin 2.08, 6 san nəticə ilə yeni dünya rekorduna imza atmışdı. Qrişinin nəticəsi növbəti qaçışda digər sovet idmançısı Yuri Mixaylov tərəfindən təkrar olundu. Hər iki idmançının nailiyyətləri qızıl medalla mükafatlandırıldı.

5000 m məsafəyə yarışlarda Boris Şişkov qalib gəldi. Sovet idmançıları yalnız 10 000 m məsafəyə yarışlarda fərqlənə bilmədilər. Bu yarışlarda İsveç idmançısı Siqvard Eriksson qalib gəldi.

Qış Olimpiya oyunlarının qəhrəmanı adına 19 yaşlı dağ xizəkçisi (Avstriya) Toni Zayler layiq görüldü.

### Kanada yığmasını tar-mar edən dünya, Avropa və Olimpiya çempionu kim idi?

Tamaşaçılar SSRİ-Kanada hokkey matçını səbirsizliklə gözləyirdilər. ABŞ yığma komandasına 1:4 hesabı ilə uduzan Kanada matça xüsusi səylə hazırlaşırdı. Əgər kanadalılar bu matçda qalib gəlsəydi, hər üç komandanın (Kanada, ABŞ, SSRİ) hesabında olan xalları sayı bərabərləşirdi. Bu zaman şaybaları saymaq lazım gəlirdi. Kanadalılar qələbə uğrunda inadla mübarizə aparırdılar. İlk dövrədə onlar SSRİ yığma komandasının qapısına 23 ötürmə ilə hucum etdilər. Sovet hokkeyçilərinin hesabında yalnız 10 ötürmə var idi. Kanadalıların güclü hücumlarından müdafiə olunan SSRİ idmançıları komandanın qapıçısı Nikolay Puçkova minnətdar olmalı idilər. Puçkov qapını çox gözəl müdafiə edirdi və komandasını dəfələrlə çətin vəziyyətdən qurtarmışdı. İlk dövrənin sonuna yaxın kanadalıların yorulduğu açıq hiss olunurdu.

İkinci dövrə birincidən də gərgin keçdi. Təcrübəli Kanada idmançılarının təhlükəli zərbələri qarşısında sovet hokkey məktəbinin yetirmələri inadla və var gücləri ilə mübarizə aparırdılar. Gözlənilən an gəlib çatdı: Yuri Krılovun ötürdüyü şayba kanadalıların qapısından keçdi. Hesab 1:0 idi.

Fasilədən istifadə edən Kanada idmançıları, meydançaya buz tökməyi tələb etdilər. Kanada yığma komandası fasilədən sonra oyuna kəskin hücumlarla başladılar. Lakin Kanada hokkeyçilərinin səyləri əbəs idi. Valentin Kuzinin ötürməsi daha bir qolla nəticələndi- 2:0.

Kanada yığma komandasını 2:0 hesabı ilə məğlubiyyətə uğradan SSRİ yığma komandası dünya, Avropa və Olimpiya çempionu titullarına layiq görülür.

VII Qış Olimpiya Oyunlarında 7 qızıl, 3 gümüş və 6 bürünc medal qazanan sovet idmançıları ən güclü olduqlarını sübuta yetirdilər.

### VIII Qış Olimpiya Oyunları

**1960 ( Skvo-Velli )**
**18-28 fevral**

VIII Qış Olimpiya Oyunlarında 30 ölkədən 665 idmançı iştirak edirdi.

**Proqram**

Proqramda ilk dəfə biatlon və qadınlar arasında konki yarışları nümayiş etdirildi. Bobsley yarışları proqramdan çıxarıldı.

**Nəticələr**

SSRİ yığma komandası 146,5 xalla I (21 medal-7 qızıl, 5 gümüş və 9 bürünc), ABŞ 62 xalla II ( 10 medal-3 qızıl, 4 gümüş və 3 bürünc), İsveç 62 xalla III yeri (3 qızıl, 2 gümüş və 2 bürünc) yerə layiq görüldü.

### "Ağ Olimpiada"da ilk Olimpiya kəndi

Skvo-Velli (Qadınlar vadisi") Kaliforniyanın şəhəridir. Dəniz səviyyəsindən 1889 metr yüksəklikdə yerləşən vadinin eni 800 metr, uzunluğu isə 3 km-dir.

VIII Qış Olimpiya Oyunlarından əvvəl Skvo-Velli şəhərində 11 min tamaşaçı tutan buz stadionu istifadəyə verildi. Skvo-Velli şəhərində qış Olimpiya oyunları tarixində ilk dəfə Olimpiya kəndi inşa edildi. Yarışlar elektron-hesablama maşınlarının köməyi ilə idarə olunurdu.

Skvo-Velli-1960 Olimpiadası 1960-ci il fevralın 18-də 15 min tamaşaçının iştirakı ilə açıq elan edildi. "Ağ Olimpiada"nın bayram proqramının Senarisi məşhur ABŞ kinorejissoru Uolt Disney tərəfindən hazırlanmışdı.

### Olimpiadada rəqabət güclü idi

Skvo-Velli Olimpiadasında rəqabət çox güclü idi. Sovet idmançıları uğurlu çıxışları ilə keçən yarışlarda əldə etdikləri qələbələrin təsadüfi olmadığını sübuta yetirdilər. ABŞ təmsilçiləri də gözəl oyun nümayiş etdirdilər. Konkisürmə idman növü üzrə fərdi yarışların qalibləri Devid Cenkins və Keral Heysin dueti qış Olimpiya oyunlarının ən gözəl mənzərəsi idi. ABŞ yığmasının hokkey turnirində qələbəsi Olimpiadanın təqvimində maraqlı hadisələrdən biri oldu.

Norveç, İsveç və Finlandiya təmsilçiləri xizək və konki, fransız və avstraliyalılar isə dağ xizəyi yarışlarında yüksək idman ustalığı nümayiş etdirdilər.

### Konki yarışlarının qəhrəmanı

Məşhur sovet idmançısı Yevqeni Qrişinin çıxışı Skvo-Velli Olimpiadasının diqqət mərkəzində idi. Konki idmanı növü üzrə dünyanın ən yaxşı sprinteri sayılan Y.Qrişin 4 il əvvəl Kortina D Ampetso Olimpiadasında olduğu kimi VII Qış Olimpiya Oyunlarına yeni dünya və Olimpiya rekordlarına imza atmaq niyyətində idi.

500 m məsafəyə yarışlarda köhnə Olimpiya rekordunu təkrarlayan SSRİ təmsilçisi ikinci qızıl medalını 1500 m məsafədə qazandı. Yarışların axırıncı günü Qrişin yenidən start xəttinə çıxdı: təşkilatçılar 500 m məsafəyə dünya rekordçusunu müəyyən etmək üçün əlavə yarışlar keçirməyi qərara almışdılar. Dördqat Olimpiya çempionu Yevqeni Qrişin bu yarışlarda da uğur qazanaraq (39,6 san.) yeni dünya rekorduna imza atdı.

### İdmançının özünə ad günü hədiyyəsi

Digər sovet idmançısı (stayer) Viktor Kosiçkinin 5000 m məsafəyə yarışlarda start xəttinə çıxması fevralın 25-nə təsadüf edirdi. Həmin gün Kosiçkinin 22 yaşı tamam olurdu. İdmançının bu yarışlarda əldə etdiyi qızıl medal həm də özünə ad günü hədiyyəsi idi. İdmançı gümüş medalı ertəsi gün 10 000 m məsafəyə yarışlarda qazandı.

Skvo-Velli şəhərində hər gün səslənən zəng səsləri idmançıları və yarış iştirakçılarını təqdimat mərasiminə çağırırdı. Bundan sonra qalib idmançının şərəfinə təmsil etdiyi ölkənin himni səslənirdi. SSRİ-nin himni gənc idmançı Lidiya Skoblikovanın (Ural) şərəfinə iki dəfə səsləndi. Sovet idmançısı bu olimpiadada iki dəfə - 1500 və 3000 m məsafəyə yarışlarda -Olimpiya çempionu tituluna layiq görülmüşdü.

Qadınlar arasında 10 km məsafəyə xizək yarışlarında SSRİ təmsilçiləri fərqlənirdilər. Bu yarışlarda leninqradlı (Sankt-Peterburq) Mariya Qusakova qızıl medala sahib oldu. Ümumiyyətlə, həmin məsafəyə xizək yarışlarında hər üç yeri sovet idmançıları bölüşdürdülər. II yeri Lyubov Baranova, III yeri isə Radya Eroşina tutdular. Amma sovet idmançıları dağ xizəyi və hokkey yarışlarında müvəffəqiyyətsizliyə uğradılar.

*(ardı var)*

***Səadət Hakıyeva***

# FUTBOL

## Final üçün iki namizəd: Münhen, yoxsa Sankt-Peterburq?

2020-2021 mövsümündə Avropa Liqası, qadınlar arasında Çempionlar Liqası və UEFA Super Kubokunun final oyunlarına ev sahibliyi edəcək ölkələrin adları UEFA İcraiyyə Komitəsinin mayın 29-da Bakıda keçiriləcək iclasında açıqlanacaq.

Bu barədə qitə futbol qurumunun rəsmi saytı məlumat yayıb. Həlledici matçlara ev sahibliyi etmək üçün 7 milli assosiasiya UEFA-ya müraciət ünvanlayıb.

Gürcüstan (Boris Payçadze adına "Dinamo" stadionu, Tbilisi) və İspaniya (Ramon Sançes Pisxuan stadionu, Sevilya) Avroliqanın, Belarus ("Dinamo" stadionu, Minsk), Finlandiya (Olimpiya stadionu, Helsinki), Şimali İrlandiya ("Uindsor Park Milli Futbol Stadionu", Belfast) və Ukrayna, ("Metalist" stadionu, Xarkov) UEFA Superkubokunun, İsveç ("Qamla Ullevi" stadionu, Qotenburq) isə Qadınlar arasında Çempionlar Liqasının final oyununu qəbul etmək üçün quruma lazımi sənədləri təqdim edib.

Kişilər arasında 2021-ci il Çempionlar Liqasının final oyununun məkanı isə Bakıda açıqlanmayacaq. Qitənin ən nüfuzlu klub turnirinin 2021, 2022 və 2023-cü il finallarına ev sahibliyi etmək istəyən ölkələrin adları UEFA-nın sentyabrda keçiriləcək iclasında müəyyənləşəcək.

Qeyd edək ki, 2021-ci il finalına Almaniyanın Münhen şəhərindəki "Alyans Arena" və Rusiyanın Sankt-Peterburq şəhərindəki eyniadlı stadion namizəddir.

## Anatoli Banişevskinin 73-cü ildönümü "Amasiya" idman klubunda təntənə ilə qeyd olundu





Fevralın 16-23-də Azərbaycan futbolunun ən istedadlı nümayəndələrindən biri olan Anatoli Banişevskinin anadan olmasının 73-cü ildönümü ilə əlaqədar AFFA, Futbol Veteranları İttifaqı və Bakı Kəndlər Futbol Federasiyasının təşkilatçılığı ilə xatirə turniri keçirilib.



2007-ci il təvəllüdlü uşaqlardan ibarət komandaların iştirak etdiyi turnirin final oyununda əvvəl AFFA-nın və "Neftçi" Peşəkar Futbol Klubunun nümayəndələri, təşkilatçılar, veteran futbolçular A.Banişevskinin məzarını ziyarət edib, gül dəstələri qoyublar.

Daha sonra həlledici oyunda "Səbail" və "Sabah" komandaları qarşılaşıb. Qarşılaşmanın əsas vaxtı 1:1 hesabı ilə yekunlaşıb. Oyunsonrası penaltilər seriyasında rəqibini 2:4 hesabı ilə məğlub edən "Sabah" turnirin qalibi olub. Üçüncü yer uğrunda keçirilmiş oyunda isə "Neftçi" "Xəzri" üzərində 5:0 hesablı qələbə qazanıb. Fərid Məcidov ("Neftçi") turnirin ən məhsuldar oyunçusu olub. Babamirzə Mehdiyev ("Sabah") ən yaxşı oyunçu, Aqşin Nəsirov ("Səbail") ən yaxşı qapıçı, İslam Kərimov ("Amasiya" İK) isə ən yaxşı məşqçi seçilib. "Fair-pley" mükafatı Məsum Əliyevə ("Səbail") təqdim olunub.

Final oyunu başa çatdıqdan sonra mükafatlandırma mərasimi keçirilib. Qalib komandaya kubok, xatirə medalları və diplomlar təqdim olunub.

Tədbir başa çatdıqdan sonra yarışda ən yaxşı məşqçi seçilən, əməkdar məşqçi İslam Kərimov yarışla bağlı fikirlərini "Olimpiya dünyası" qəzeti ilə bölüşdü:

"Bildiyiniz kimi, Azərbaycanın tanınmış futbolçusu Anatoli Banişevskinin anadan olması ilə bağlı silsilə turnirlər keçirilir. Belə bir yarış "Amasiya" İdman klubunun stadionunda təşkil edildi. Adı çəkilən idman ocağı əlamətdar günlərə həsr olunmuş yarışların təşkilində fəallıq təşkil edir. Çalışdıq ki, yarış veteran futbolçumuzun adına layiq olsun. Heç bir ödəniş edilmədən klubun meydançaları futbolçuların ixtiyarına verildi. Məhz buna görədə "Amasiya" idman klubunun prezidenti Fikrət Həsənov AFFA tərəfindən müvafiq diplomla təltif olundu. Bu qurum tərəfindən bizə verilən növbəti dəyərin təcəssümüdür. "Amasiya" idman klubu uşaq və yeniyetmələrin fiziki və mənəvi sağlamlığını daim prioritet məsələ kimi diqqətdə saxlayır. Belə yarışlar gənc nəslin vətənpərvər böyüməsində xüsusi rol oynayır".

* * *

Fevralın 23-də Binə Qəsəbə İdman Kompleksində veteran futbolçu Anatoli Banişevskinin xatirəsinə həsr olunmuş turnir keçirilib. Yarışlar Bakı Şəhər Gənclər və İdman baş İdarəsi, Milli Olimpiya Komitəsi, AFFA və Bakı Kəndlər Futbol Federasiyasının birgə təşkilatçılığı təşkil edilib.



İlk qarşılaşmada yeniyetmə futbolçular yarışıblar. Həmin matçda "Qobustan" komandası "Qardaşlar" kollektivinə 2:0 hesabı ilə qalib gəldi. "Dalğa Arena"dakı ikinci görüşdə 16 yaşdan yuxarı həvəskarlar mübarizə aparıblar. "Binə" və "Ələt" komandaları arasında keçirilən görüşdə birincilər üstün olublar - 3:2. Yarış başa çatdıqdan sonra qalib komandalara medallar təqdim olunub.

## "Neftçi" "Sabah"dan üstün olacaq?

Topaz Premyer Liqasının 19-cu turunun oyunlarına həftə sonları start veriləcək. Ötən həftə "Səbayıl"a uduzan "Neftçi" bu dəfə "Sabah"ı sınağı çəkəcək. "Keşlə" "Qarabağ"la üz-üzə gələcək. "Qəbələ" "Zirə"nin, "Sumqayıt" isə "Səbayıl"ın qonağı olacaq.

**2 mart (şənbə)**

**"Neftçi" - "Sabah"**
**Hakimlər:** Vüqar Həsənli, Mübariz Haşımov, Cəmil Quliyev, Nail Nağıyev
**"Bakcell Arena", 18:30**

**"Səbail" - "Sumqayıt"**
**Hakimlər:** Səbuhi Bayramov, Yaşar Abbasov, Müslüm Əliyev, Ziya Nəsirov
**"Bayıl Arena", 16:00**

**3 mart (bazar)**

**"Zirə" - "Qəbələ"**
**Hakimlər:** İnqilab Məmmədov, Rahil Ramazanov, Əli Cəbrayılov, Namiq Bəkirov
**Zirə İdman Kompleksinin stadionu, 15:00**

**"Keşlə" - "Qarabağ"**
**Hakimlər:** Orxan Məmmədov, Elşad Abdullayev, Qəzənfər Məmmədov, Nahid Xasıyev
**"ASK Arena", 17:30**

Qeyd: iki günü əhatə edəcək turun bütün görüşləri "CBC Sport" kanalı vasitəsi ilə canlı yayımlanacaq.

Fevralın 22-də Avropa Liqasında 1/8 final mərhələsinin püşkü atılıb.

"Olimpnews.az" saytının verdiyi məlumata görə, UEFA-nın Nyon şəhərindəki mənzil-qərargahında keçirilən püşkatmada maraqlı cütlüklər yaranıb. Belə ki, 1/8 finalda İspaniya 3, İngiltərə, İtaliya və Rusiya 2,

## "Sevilya"nın bu dəfə bəxti gətirdi



Almaniya, Portuqaliya, Fransa, Ukrayna, Avstriya, Çexiya və Xorvatiya isə 1 komanda ilə təmsil olunub.

Püşkün nəticəsinə əsasən, 1/8 final mərhələsində aşağıdakı komandalar üz-üzə gələcəklər:

"Çelsi" (İngiltərə) - "Dinamo" (Kiyev, Ukrayna)
"Ayntraxt" (Almaniya) - "İnter" (İtaliya)
"Dinamo" (Zaqreb, Xorvatiya) - "Benfika" (Portuqaliya)
"Napoli" (İtaliya) - "Zalsburq" (Avstriya)
"Valensiya" (İspaniya) - "Krasnodar" (Rusiya)
"Sevilya" (İspaniya) - "Slaviya" (Çexiya)
"Arsenal" (İngiltərə) - "Renn" (Fransa)
"Zenit" (Rusiya) - "Vilyarreal" (İspaniya)

1/8 final mərhələsinin ilk oyunları martın 7-də, cavab görüşləri isə 14-də olacaq.

Qeyd edək ki, Avropa Liqasının final oyunu mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək.

## "Barselona"nın sabiq rəhbəri məhkəmədə

Braziliya Futbol Konfederasiyasına məxsus 20 milyon avro məbləğində "çirkli pulların yuyulması"nda təqsirləndirilən "Barselona" futbol klubunun sabiq prezidenti Sandro Rosell həyat yoldaşı və digər dörd müqəssirlə birgə Milli Məhkəmədə müttəhimlər skamyasında əyləşib.

S.Rosell Braziliya yığmasının imic hüquqlarının, həmçinin braziliyalıların yoldaşlıq oyunlarının nümayiş etdirilməsi hüquqlarının satışından qazanılmış pulları mənimsəyib.

Prokurorluq 2017-ci ilin may ayından həbsxanaya yerləşdirilən Sandro Rosell üçün 11 il azadlıqdan məhrumetmə cəzası və 59 milyon avro cərimənin ödənilməsi barədə qərar çıxarılmasını tələb edir.

## Peru ev sahibliyindən məhrum edildi

Beynəlxalq Futbol Federasiyaları Assosiasiyasının (FİFA) nümayəndələr komissiyası 17 yaşadək oyunçular arasında futbol üzrə dünya çempionatını başqa ölkədə keçirmək barədə qərar qəbul edib. Bu barədə təşkilatın mətbuat xidməti bildirib.

2019-cu ilin dünya birinciliyinə ev sahibliyini Peru həyata keçirməliydi. Lakin FİFA nümayəndələri turnirin keçiriləcəyi yerlərə səfərlər zamanı və ölkənin futbol federasiyası ilə görüşdə infrastrukturun hazırlanmasında, həmçinin logistikanın təşkilində çoxsaylı problemlər aşkarlayıblar.

"FİFA dünya çempionatının başqa ölkədə keçirilməsi barədə qərar verib, birincilik Peruda təşkil olunmayacaq. Təşkilat Peru Futbol Federasiyasına və hakimiyyət orqanlarına göstərdikləri səyə və gələcəkdə turnirin bu ölkədə keçirilməsinə hazır olduqlarına görə minnətdarlığını bildirir. Yaxın vaxtlarda FİFA dünya çempionatının keçirilməsi üçün alternativ variantlara baxacaq", - deyə məlumatda bildirilir.

Yeniyetmə komandalar arasında dünya birinciliyinin Peruda keçirilməsi qərarı 2018-ci ilin martında qəbul edilib. Ruandanın rəqabətlə bağlı müraciəti isə logistika problemləri səbəbindən rədd edilib. Yarışların təqviminə əsasən, turnir 2019-cu il oktyabrın 5-dən 27-dək olan dövrdə keçirilməlidir. Xatırladaq ki, hazırkı dünya çempionu İngiltərə yığmasıdır.

## DÇ-2022 üçün könüllülərin sayı artır

2022-ci ildə Qətərdə təşkil olunacaq futbol üzrə dünya çempionatında 263 mindən çox könüllü qeydiyyatdan keçib.

Bunu dünya çempionatının Təşkilat Komitəsinin mətbuat xidməti açıqlayıb. Bildirilib ki, dünya çempionatının könüllülər proqramına qatılmaq üçün müraciətlərin qəbulu davam edir.

XXII dünya çempionatının oyunları 2022-ci il noyabrın 21-dən dekabrın 18-dək yeddi şəhərdə - paytaxt Doha ilə yanaşı, Lusail, Əl-Vakr, Əl-Xore, Əl-Rayan, Ümm-Salal və Mədinət-əş-Şamalda keçiriləcək.

Qeyd edək ki, Qətər Yaxın Şərqdə futbol üzrə dünya çempionatına ev sahibliyi edəcək ilk ölkə olacaq. Dünya çempionatı ilk dəfə qışda keçiriləcək.

## Çin Avropadan hakim transfer etdi

Son illər ulduz futbolçuların bahalı transferləri ilə diqqət mərkəzinə düşən Çin Superliqası bu dəfə çempionata məşhur hakimi cəlb edib.

"Olimpnews.az" saytının Britaniya mətbuatına istinadən yaydığı xəbərə görə, ingiltərəli referi Mark Klattenburq Çində öz işini davam etdirəcək.



Qeyd edək ki, Klattenburq 2004 - 2017-ci illərdə İngiltərə Premyer Liqasının oyunlarını idarə edib. 2016-cı ildə Çempionlar Liqası və Avropa çempionatının final oyunlarının baş hakimi olan təcrübəli referi son olaraq Səudiyyə Ərəbistanında Hakimlər Komitəsinə başçılıq edib.



# Dünya idmanı

## Döyüşçülər UFC-ni tərk edirlər

Mütləq döyüş çempionatının (UFC) amerikalı idmançıları Dastin Porye və El Yakuinta UFC ilə olan müqavilələrini ləğv etmək istəyirlər. Hər iki idmançı döyüşlərin sayının az olmasından narazıdır.

"Mən UFC ilə müqaviləmi ləğv etmək istəyirəm. Qurumun rəhbərliyi məni Yakuinta ilə döyüşdürmək istəyir? Razıyam, amma bir şərtlə ki döyüşün qonorarın artırsınlar. Lakin heç kim bu barədə mənə rəsmi qaydada təklif etməyib", - deyə Dastin Porye bildirib.

İndiyədək 29 döyüş keçirən 30 yaşlı Dastin Porye 24 qarşılaşmada qalib gəlib, 5 görüşdə isə məğlub olub. El Yakuinta isə 18 döyüşün 14-də rinqi qələbə ilə tərk edib.



## Daha bir yeni idman növü...



Fransada işıqlı qılınclarla döyüş rəsmi idman növü kimi qəbul olunub. Fransa Qılıncoynatma Federasiyası işıqlı qılınclarla döyüş növünün ciddi fiziki hazırlıq tələb etdiyi üçün bu qərarı qəbul edib. Hazırda ölkənin qılıncoynatma klubları xüsusi təlimatçılar və polikarbonatdan hazırlanan qılınclarla təchiz olunub.

Həmin qılınclar zərbə zamanı səciyyəvi səslər çıxarmaqla yanaşı, işıq saçacaq. İdman növünün qaydalarına əsasən, döyüşçülər dairənin içində vuruşur. Başa və ya bədənə zərbə endirmək 5 xal, əllərə və ya ayağa zərbə üçün 3 xal verildiyi halda, biləyə endirilən zərbə 1 xalla qiymətləndirilir.

15 xal toplayan, həmçinin 3 dəqiqədən sonra hesabda öndə olan idmançı qalib hesab edilir. Əgər hər iki döyüşçünün 10 xalı varsa, başa və ya bədənə vurulacaq bir zərbə qalibi müəyyənləşdirir.

## *Tərəflər razılığa gəldilər*

"Kardiff Siti" və "Nant" təyyarə qəzasında həlak olan Emiliano Salanın transferi üçün ödənişlə bağlı razılığa gəliblər.

Fransızlar 5 milyon funt sterlinq məbləğində ilk ödəmənin bir həftə təxirə salınmasına etiraz etməyiblər. Uelslilər 29 yaşında dünyasını dəyişən hücumçunun transferi üçün nəzərdə tutulan məbləğin 1/3-ni fevralın 20-dək verməli idilər.

Lakin "Kardiff Siti" rəhbərliyi "Nant"dan futbolçunun faciəvi ölümü ilə bağlı istintaqın nəticələrini gözləməyi xahiş edib. Emiliano Sala "Kardiff Siti"yə Fransa "Nant"ından 15 milyon funt sterlinqə keçib. O, Uels təmsilçisinin tarixində ən bahalı transfer olub.

Argentinalı forvard Uelsə yanvarın 21-də axşam saatlarında birbaşa hava reysi ilə yola düşüb. Planlaşdırılan enişdən bir saat əvvəl hava gəmisi radarlardan itib. Axtarış qrupu təyyarəni La Manş boğazından tapıb. Daha sonra isə futbolçunun meyiti aşkarlanıb.

## 40 il gizli qalan görüş



***SSRİ dövründə gənc sovet şahmatçısı xarici ölkədə hansısa rəssamın görüşünə gedə bilərdimi? Bu barədə məlumata heç yerdə rast gəlmək mümkün olmasa da, bu görüş baş tutub. Həmin görüş 1979-cu ildə Nyu-Yorkda olub. Tarixi bir görüş düz 40 il gizli qalıb. Söhbət şahmat üzrə dünya çempionu Anatoli Karpovla əfsanəvi rəssam Salvador Dalinin görüşündən gedir.***

Həmin görüş barədə Karpov özü danışıb: "Mənim məşhur rəssam ilə görüşüm hardasa 40 il bundan əvvəl baş tutub. 1979-cu ildə Monrealda beynəlxalq şahmat turniri keçirilməli idi. Yarışla bağlı Nyu-York şəhərində təqdimat keçiriləcəkdi. Həmin tədbirə mən də dəvətli idim. ABŞ-a ilk gəlişimdə baş verən hadisəni indiyə kimi xatırlayıram. Turnirin təşkilatçıları dedilər ki, Salvador Dali şahmata böyük maraq göstərir. Mənim də rəsm əsərlərinə, rəssamlıq sənətinə böyük marağım var idi. Beləliklə, bizim Salvador Dali ilə görüşümüz baş tutdu. Şəhərin mərkəzindəki restoranların birində keçirilən bu görüşdə ingilis dilində danışırdıq. Həmin vaxt mənim 28, Salvador Dalinin isə 74 yaşı var idi. Yaş fərqimizin böyük olmasına baxmayaraq, o, bu fərqi hiss etdirməməyə çalışırdı. Dalinin davranışları onun nə qədər ağıllı olduğunu göstərirdi. Söhbətimiz çox maraqlı keçdi. Birlikdə vaxt keçirmək mənim çox xoşuma gəldi. Onunla rəsm əsərlərindən, rəssamların həyat tərzindən danışdıq. Mən onun danışdığı çox gözəl məlumatlardan yararlandım. Rəsm mövzusunda danışmaq mənim üçün çətin deyildi. Hətta çox maraqlı idi. Salvador Dalinin rəsm əsərlərinin bir çoxunun surəti məndə var idi. Evimdə divardan asılan bu sənət əsərlərini seyr etməkdən böyük zövq alırdım. Söhbət zamanı hiss etdim ki, Salvador Dali şahmatla maraqlanır və şahmatı çox yaxşı bilir. Müəyyən turnirlər barədə müzakirələr apardıq. Məşhur rəssam hətta 1978-ci ildə qələbə qazandığım oyunla bağlı mənə bəzi suallar da verdi".

Sizcə, ötən əsrin 70-ci illərində sovet vətəndaşı xarici ölkədə SSRİ Dövlət Təhlükəsizlik Komitəsindən (DTK) gizli görüş keçirə bilərdimi? Əlbəttə, bu, mümkün deyildi. Çünki DTK sovet sakinlərinin hər addımına nəzarət edirdi. İki məşhur insanın da görüşü DTK-nın nəzarəti altında olub. Hər halda, Anatoli Karpov görüşdə DTK agentinin iştirak etdiyini deyib: "Salvador Dalinin yanında iki qadın var idi. Rəssamın həyat yoladaşlarından biri - Yelena Dyakonova rus olduğu üçün onun Rusiya ilə daha çox maraqlanacağını gözləyirdim. Yelena məndən Rusiyanın hansı vilayətindən olduğumu soruşdu. Uraldan olduğumu dedim. O, başını tərpətdi. Hiss etdim ki, Yelena bundan sonra Rusiya ilə bağlı məndən heç nə soruşmayacaq. Onu da deyim ki, Salvador Dalinin insanı ilk görüşdə cəlb edən imicinin yaradıcısı məhz Yelena idi. Rəssam dedi ki, bu qadınlar onun dostlarıdır. Rus qadın mənimlə danışanda hiss etdim ki, o, agentdir. Yelena Dyakanova adlanan bu insanın hərəkətləri məni şübhələndirdi. Digər qadın isə, keçmiş ərinin ətriyyat şirkətinin sahibi olduğunu dedi. Salvador Dali ilə onun nə əlaqəsi ola bilərdi. Məncə, həmin qadın da bizə nəzarət üçün gəlmişdi. Təqribən iki saat söhbətləşdik. Sonra nahar etdik. Düzü, DTK agentinin burada olmasından bir az narahat idim. Yadıma Viktor Korçnoyla keçirdiyim oyun düşdü. Həmin vaxt sekundantım olan Mixail Tal mənə demişdi: Əgər sən Korçnoya uduzsan, məni həbs edəcəklər". İndi bu məsələ çoxlarına uydurma kimi görünə bilər. Amma o dövrdə yaşayan insanlar təsdiq edərlər ki, DTK hər şeyə qadir idi". Karpovun dediyinə görə, nahar zamanı qalmaqal baş verib. Belə ki, rəssamın ispaniyalı həyat yoldaşı 3 yumurta və qara kürü sifariş edib. Buna görə 20 dollar ödəməli olan qadın qiymətlərin baha olmasını deyərək səs-küy salıb. Kifayət qədər varlı olan insanın 20 dollara görə dava etməsi Karpovu təəccübləndirib.

Maraqlıdır ki, 35 il bundan əvvəl keçirilən bu görüş barədə heç bir məlumat yayılmayıb. Lakin iki məşhur şəxsin görüşü naməlum adam tərəfindən fotoaparatla çəkilib. Deyilənlərə görə, Anatoli Karpovla Salvador Dalinin ilk və son görüşünü əks etdirən həmin şəkil 600 dollardan baha satılıb.

## Qadın atlet birinci oldu

Anjelika Sidorova Almaniyanın Düsseldorf şəhərində keçirilən Beynəlxalq Atletika Federasiyaları Assosiasiyasının (İAAF) qış çempionatında şüvüllə tullanma yarışının qalibi olub.



27 yaşlı rusiyalı idmançı 4,77 metr nəticə ilə bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Xatırladaq ki, rusiyalı atlet 2014-cü və 2015-ci illərdə Rusiya, 2014-cü ildə isə Avropa çempionatlarında qızıl medal qazanıb.

**olimpnews.az - sizin saytınız**




"Olimpiya dünyası" qəzetinin kollektivi tanınmış jurnalist Məzahir Süleymanzadəyə, həyat yoldaşı

**Gülnarə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Təhsil" Respublika İdman Mərkəzinin kollektivi Yevlax şəhər Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru

**Teymur Tofiq oğlu İsgəndərovun**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19